**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “KORONAVİRUS (COVİD-19) PANDEMİYASININ ƏHALİNİN İNNOVATİV FƏALİYYƏTİNƏ TƏSİRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İsmayılova Gülzar Ramiz**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________ imza**

**"____" ________________ 20__-ci il**

# "KORONAVİRUS (COVİD-19) PANDEMİYASININ ƏHALİNİN İNNOVATİV FƏALİYYƏTİNƏ TƏSİRİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060407-Menecment

**İxtisaslaşma:** İnnovasiyaların və layihələrin idarə olunması

**Qrup:** 228

**Magistrant:**
**İsmayılova Gülzar Ramiz qızı**
**___________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., b/m Aslanova Afaq Fərhad qızı**
**_________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**______________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_________________ imza**

**BAKI – 2022**

## Elm andı

Mən, İsmayılova Gülzar Ramiz qızı and içirəm ki, "Koronavirus pandemiyasının əahlinin innovativ fəaliyyətinə təsiri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**KORONAVİRUS PANDEMIYASININ ƏHALİNİN İNNOVATİV FƏALİYYƏTİNƏ TƏSİRİ**

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Bütün dünyanı kütləvi şəkildə bürüyən koronavirus pandemiyası müasir dövrün ən aktual problemlərindən birinə çevrilmişdir.Bu proses isə öz növbəsində müxtəlif sahələrə, həmçinin, əhaliyə müxtəlif istiqamətlərdən təsir etmişdir.Başqa sözlə, koronavirus pandemiyasının təsiri ilə əhalinin fəaliyyətinin innovativ istiqamətləri müəyyən edilmişdir.**

**Tədqiqatın məqsədi:Tədqiqatın məqsədini pandemiya dövründə həyata keçirilən tədbirlərin əhalinin fəaliyyətinə təsirini araşdırmaq, təhlil etmək və qiymətləndirmək təşkil edir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işinin raşdırılmasında müşahidə, statistik analiz, SWOT təhlili, PESTE analizi, anlket sorğu metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat işinin məlumat bazasını bu mövzuda beynəlxalq jurnallarda yerli və xarici alimlərin, tədqiqatçıların dərc edilmiş elmi əsərləri, məqalələri, kitabları, rəsmi statistik məlumatlar təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusunun yeni mövzu olduğunu nəzərə alaraq lazımı statistik göstəricilərin və Azərbaycan dilində məlumatların kifayət qədər olmaması araşdırılma aparılarkən müəyyən çətinliklərlə qarşılaşılmışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Pandemiya ilə mübarizədə həyata keçirilən innovativ layihələrin təsiri ilə problemlərin aradan qaldırlması yolları təhlil edilmişdir.Nəticədə mövcud iqtisadi təhlillərin köməyilə əhalinin fəaliyyətin innovativ istiqamətləri müəyyən edilmiş və onların təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Dissertasiyanın araşdırılması zamanı müəyyən təhlillər aparılmışdır ki, gələcəkdə baş verə biləcək belə fost-major hallar zamanı bu təhlillərdən istifadə edilməsi mümkündür.Bu təhlillər vasitəsilə lazımi tədbirlər görülə və əhalinin sosial rifahının yaxşılaşdırılmasına nail oluna bilər.**



***Açar sözlər: koronavirus pandemiyası, Covid-19, innovasiya***


## THE EFFECT OF CORONAVIRUS PANDEMIA ON INNOVATIVE ACTIVITY OF THE POPULATION

**SUMMARY**

**The actuality of the subject: The coronavirus pandemic, which has spread around the world, has become one of the most pressing problems of our time. This process, in turn, has affected various areas, as well as the population from different aspects. In other words, under the influence of the coronavirus pandemic, innovative directions of the population's activity have been identified.**

**Purpose and tasks of the research: The purpose of the study is to study, analyze and assess the impact of measures taken during the pandemic on the activities of the population.**

**Used research methods: Observation, statistical analysis, SWOT analysis, PESTE analysis, questionnaire methods were used in the research.**

**The information base of the research: The database of research consists of scientific works, articles, books, official statistics of local and foreign scientists and researchers published in international journals on this topic.**

**Restrictions of research: Given that the research topic is novel, the lack of necessary statistical indicators and information in the Azerbaijani language posed certain difficulties during the study.**

**The novelty and practical results of investigation: Ways to overcome the problems under the influence of innovative projects implemented in the fight against pandemics were analyzed. As a result, with the help of existing economic analysis, innovative directions of the population's activity were identified and measures were taken to improve them.**

**Scientific-practical significance of results: During the research, certain analyzes were carried out, which can be used in case of force majeure in the future. With the help of these analyzes, necessary measures can be taken and social welfare of the population can be improved.**

***Keywords: Coronavirus pandemic, Covid-19, İnnovation.***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **FAO** | Food and Agricultural Organization of the United Nations |
| **İEÖ** | İnkişaf  Etmiş Ölkələr |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **ILO** | International Labour Organization |
| **İEÖ** | İnkişaf etmiş ölkələr |
| **İEOÖ** | İnkişaf etməkdə olan ölkələr |
| **TƏBİB** | Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi |
| **UNICEF** | United Nations International Children's Emergency Fond |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜMM** | Ümumi Milli Məhsul |

**MÜNDƏRİCAT**

**GİRİŞ................................................................................................ 8**

**I FƏSİL. COVİD-19 PANDEMİYASI DÖVRÜNDƏ ƏHALİNİN İNNOVATİV FƏALİYYƏTİNİN MƏQSƏDİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ .................... 10**

1.1 İnnovasiya prosesinin məqsəd və xüsusiyyətlərinin müəyyənləşdirilməsi....... 11

1.2 Xarici ölkələrin təcrübəsi üzrə pandemiya dövründə həyata keçirilən əhalinin innovativ fəaliyyətinin xüsusiyyətləri ........................................................ 18

**II FƏSIL. AZƏRBAYCANDA COVID-19 PANDEMIYASININ ƏHALININ INNOVATIV FƏALIYYƏTINƏ TƏSIRININ SOSIAL-IQTISADI CƏHƏTDƏN TƏHLILI VƏ QIYMƏTLƏNDIRILMƏSI ............................... 29**

2.1 Covid-19 pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin təhlili....... 29

2.2 Covid-19 pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin qiymətləndirilməsi................................................................................ 39

**III FƏSIL. COVID 19 PANDEMIYASININ ƏHALININ INNOVATIV FƏALIYYƏTINƏ MÜSBƏT TƏSIRLƏRININ TƏKMILLƏŞDIRILMƏSI VƏ MÖVCUD PROBLEMLƏRIN ARADAN QALDIRILMASI .................. 55**

3.1 Covid-19 pandemiyası dövründə xidmət və keyfiyyətin tənzimlənməsi.......... 55

3.2 Azərbaycanda pandemiya dövründə xidmət və keyfiyyətin tənzimlənməsinin idarə edilməsi ........................................................................................ 62

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ......................................................................... 68**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI........................................... 70**

**ƏLAVƏLƏR ............................................................................................ 76**

Cədvəllərin siyahısı ..................................................................................... 81

Qrafiklərin siyahısı....................................................................................... 82

# GİRİŞ

**Mövzunun aktuallığı:** Bəşəriyyət yaranandan bəri tarix pandemiyaların səbəb olduğu bir çox ölümə şahidlik etmişdir.Bəzən bu epidemiyalar müharibələrin belə yaşada bilmədiyi itkiləri bəşəriyyətə yaşatmışdır.Epidemiyalar təkcə insanların həyatlarını itirməklərilə kifayətlənməyib, sosial rifahın pozulmasına, istehsalın dayanmasına, iqtisadiyyatın dağılmasına səbəb olmuşdur.

Covid-19 virusu İkinci Dünya Müharibəsindən sonra ən böyük böhran kimi tanınmışdır.Ölkələr şəxsi müdafiə və digər resursları əldə etmək üçün digər ölkələri qabaqlamaq mqəsədilə iqtisadi müharibəyə başladı və böhran dünya ticarəti və qloballaşmanın geriləməsinə səbəb oldu.Xüsusilə, fərdlər sosial təcrid, özünün və başqalarının sağlamlığını təhlükəyə atmamaq səbəbilə evdə daha çox vaxt keçirmək, ictimai mühitdən uzaqlaşmaq və yaxın ətrafı ilə təmaslarını minumuma endirmək məcburiyyətində qalmışdırlar.Bu da onların texnoloji biliklərini təkmilləşdirməsinə, bu sahədə heç bir məlumatı olmayanların isə onlarla yeni tanış olmasına, yeni vərdişlər qazanmaq, vaxtlarını sərfəli keçirmək istəmələrinə təsir göstərmişdir.Biznes fəaliyyəti baxımından isə bəzi müəssisələr evdən, uzaqdan çalışma iş modelini tətbiq etməyə başlamış, bəzi müəssisələr kadr ixtisarı edərkən, bəziləri isə fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalmışdır.Epidemiya iqtisadi, psixoloji, fiziki, siyasi, ictimai mənada bir çox mənfi təsirlərə və nəticələrə səbəb olmuşdur.

Epidemiyanın mənfi cəhətləri ilə yanaşı bəzi imkanları da olmuşdur.Müəyyən iqtisadi seçimlər üçün dəyişiklikliyə uyğunlaşaraq yeni qərarlar alınmış, yaranmış fürsətlərdən istifadə etmək üçün tədbirlər, layihələr həyata keçirilmişdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Ümumlikdə qoyulan problem çərçivəsində pandemiyanın yaratdığı fəsadların aradan qaldırılması üçün dövlət və digər qurumlar tərəfindən həyata keçirilən tədbirlər diqqət mərkəzindədir.Karantin səbəbilə sosial təcrid olunmuş əhalinin işsizlik səviyyəsinin artması, sosial rifahın aşağı düşməsi, təhsildə geriləmələr, turizmin inkişafının ləngiməsi və s. digər sahələrə diqqət yetirilməsi labüd xarakter daşımışdır.

Pandemiya müasir dövrdə yeni və aktual bir sahə olaraq xarici ölkə alimləri və mütəxəssisləri tərəfindən öyrənilmiş, onlara dair tədqiqat işləri aparılmışdır.Bu sahə üzrə dövlət tərəfindən müxtəlif qanunvericilik aktları qəbul edilmiş və icarsı həyata keçirilmişdir.Problemin qoyuluşuna uyğun olaraq ölkəmizdə innovasiya fəaliyyəti S.Abasova, A. Hüseynova və başqaları tərəfindən tədqiq edilib öyrənmişdir. Xarici elm xadimləri W.McKibbin, R.Fernando, S.Lİ, Y.Wang araşdırması çərçivəsində pandemiya ilə əlaqədar əsərləri xüsusi əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin məqsədi pandemiyanın əhalinin innovativ fəaliyyətinə təsir istiqamətlərini müəyyənləşdirmək, təhlil etmək və bu istiqamətdə müəyyən təkliflər hazırlayaraq onların yerinə yetirilməsinə şərait yaratmaqdan ibarətdir.

Dissertasiya işinin vəzifələri aşağıdakılardan ibarətdir:

- İnnovasiya anlayışı və onun inkişafına dair nəzəri əsasları müəyyən etmək;
- Xarici ölkələrin təcrübəsi üzrə pandemiyanın iqtisadiyyata və əhalinin innovativ fəaliyyətinə təsir istiqamətlərinin müəyyən edilməsi;
- Azərbaycanda koronavirus pandemiyasının təsir mexanizmlərinin təhlil edilməsi;
- Pandemiyanın əhalinin innovativ fəaliyyət istiqamətlərinə təsirinin təhlili və sosial-iqtisadi cəhətdən qiymətləndirilməsi;
- Azərbaycanda pandemiya dövründə xidmət və keyfiyyətin tənzimlənməsi üsulları;
- Pandmemiya şəraitində xidmət və keyfiyyətin tənzimlənməsinin idarə edilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti- pandemiya dövründə əhalinin innovativ fəaliyyət istiqamətləridir.Tədqiqatın predmeti isə pandemiya dövründə həyata keçirilən tədbirlər, onların təsir istiqamətləri, təhlili və qiymətləndirilməsidir.

**Tədqiqat metodları:** Dissertasiya işinin tədqiqi zamanı nəzəri tədqiqat metodlarından, eyni zamanda, SWOT təhlili, PESTE analizi, müşahidə , analiz, statistik yanaşma metodlarından istifadə edilmişdir.

Tədqiqatın II fəsilində anket sorğusu həyata keçirilmiş, sorğunun nəticələri əsasında müəyyən cədvəl və qrafiklər qurulmuş və təhlil aparılmışdır.

**Tədqiqatın informasiya bazası:** Bu dissertasiya işinin hazırlanması zamanı son illərdə yazılmış xarici və yerli alimlərin kitabları, məqalələri, elmi əsərlərindən istifadə edilmişdir.Eyni zamanda Azərbaycan Respublikasının qanunvericilik aktları, Prezidentin fərman və sərəncamları məlumat bazası kimi qeydə alınmışdır.Həmçinin, müxtəlif rəsmi statistik məlumatlardan da istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Azərbaycan dilində kifayət qədər ədəbiyyatın və statistik göstəricilərin olmaması tədqiqat işinin araşdırılmasında çətinlik yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi:** Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bu sahə üzrə müəyyən qanunlar və layihələr çərçivəsində tənzimləmə tədbirləri həyata keçirərək mövcud vəziyyətdən innovativ istiqamətdə istifadə etmək mümkündür.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiya işinin elmi praktiki əhəmiyyəti ondan ibarətdir ki, bu istiqamətdə verilən qanunlar və sərəncamlar fövqaladə vəziyyətlərdə nümunə kimi istifadə edilə və müəyyən təhlillər aparıla bilər.Dissertasiya işinin tədqiqindən əldə edilən nəticələr və problem çərçivəsində verilən təkliflərdən müxtəlif elmi-tədqiqat işlərində və tədris proseslərində və s. istifadə edilə bilər.

## I FƏSİL. COVİD-19 PANDEMİYASI DÖVRÜNDƏ ƏHALİNİN İNNOVATİV FƏALİYYƏTİNİN MƏQSƏDİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

## 1.1 İnnovasiya prosesinin məqsəd və xüsusiyyətlərinin müəyyənləşdirilməsi

İnnovasiya latınca "innovatus" sözündən götürülmüşdür: "Sosial,mədəni və inzibati mühitdə yeni metodlardan istifadə etməyə başlamaq" deməkdir (Elçi Ş., 2007: s.1-2).

İnnovasiyalar üzrə ən ətraflı və qəbul edilmiş tədqiqat hesab edilən OECD Oslo Təlimatına uyğun olaraq innovasiya: iş təcrübələrində, iş yerinin təşkilində və ya yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsul (mal və ya xidmət) və ya proses, yeni marketinq idarəetməsi və ya təşkilati metod reallaşmasıdır (OECD, 2006: p. 50).

İnnovasiya ilk dəfə iqtisadçı və politoloq Joseph Schumpeter tərəfindən "inkişafın hərəkətverici qüvvəsi" kimi müəyyən edilmişdir. 1911 –ci ildə yazdığı və 1934-cü ildə ingilis dilinə tərcümə edilən "İqtisadi İnkişaf Nəzəriyyəsi" kitabında Schumpeter innovasiyanı:müştərilərin hələ də bilmədikləri,naməlum məhsulun və ya mövcud məhsulun yeni keyfiyyətinin bazara çıxarılması; yeni istehsal üsulunun tətbiqi; yeni bazar açmaq; xammal və ya yarımfabrikatların tədarükü üçün yeni mənbə tapılması kimi müəyyən edir və sahibkarlar öz innovativ rolları ilə bazarda tarazlığı pozduğunu və davamlı dinamizm yaratdıqlarını vurğulamışdır (Schumpeter J., 1934: s.4).

İnnovasiya biliyin iqtisadi və sosial faydaya çevrilməsi kimi müəyyən edilir. Buna görə də o, texniki, iqtisadi və sosial proseslərin məcmusudur. Dəyişimə istək, yeniliyə açıqlıq və təşəbbüskarlıq ruhu ilə eyniləşdirilən mədəniyyətin məhsuludur. İnnovasiya şirkətlər üçün məhsuldarlığı və gəlirliliyi artırdığı üçün yeni bazarlara daxil olmağa və mövcud bazarın böyüməsinə imkan verdiyi üçün çox vacib bir rəqabət alətidir. Səmərəli, gəlirli və yüksək rəqabətli şirkətlərin fəaliyyət göstərdikləri iqtisadiyyatlar inkişaf edir və qlobal miqyasda rəqabət üstünlüyü əldə edirlər.

İnnovasiyaların məqsədləri bunlardır:

- Müştərilər üçün əlavə dəyərin artırılması;
- Məhsul/xidmət xərclərinin azaldılması;
- İnnovasiyaların reallaşdırılması sürətinin artırılması;

- Məhsul/xidmət keyfiyyətini yaxşılaşdırmaq;
- İnkişafın səmərəliliyinin artırılması;
- Məhsul/xidmətin təşviqi dərəcəsinin artırılması;
- Bazarın genişləndirilməsi;
- Yeni məhsul/xidmət kateqoriyalarının hazırlanması;
- Yeni biznes modellərinin yaradılması.

İnnovasiya ilə əlaqəli anlayışlardan biri "dəyişiklik"dir.

Dəyişiklik bir sistemin, prosesin planlaşdırılmış və ya planlaşdırılmamış dəyişməsidir.Ətraf mühitin bir vəziyyətdən digərinə keçidi kimi müəyyən edilə bilər (Durna, 2002: s.9).

Dəyişiklik indiki vəziyyətimiz, ünsiyyət və təmasda olduğumuz mühitin ehtiyaclarına qarşı acizlik qarşısında bizi yenidən strukturlaşdırmaq və bu ehtiyacları ödəmək üçün fərdi və ya təşkilati səviyyədə müəyyən mənada yeni ideyalar çıxara bilməyə qərar vermək və onu tətbiq etmək prosesidir.

Ümumiyyətlə, hərtərəfli dəyişiklik strategiyası üç kritik sahədən ibarətdir:

- Məzmun (məsələn, struktur, sistemlər, texnologiya kimi dəyişənlər);
- Proses (dəyişikliyi necə planlaşdırmaq, dizayn etmək və həyata keçirmək);
- İnsanlar (dəyişiklikdən təsirlənən və ya dəyişiklikdə iştirak edənlər).

Dəyişiklik və yenilik ziddiyyət təşkil edən hadisələrdir. Dəyişiklik ictimai xidmətin bir və ya bir neçə komponentinin böyüməsini və ya inkişafını əhatə edən geniş spektrdir. Bunun əksinə olaraq yenilik dəyişikliklərin spesifik formasıdır, qısaca, innovasiya fasiləsiz dəyişiklikdir (Osborne S. və Brown K., 2005: p.25).

"Hər bir təşkilatın bir əsas səriştəyə ehtiyacı var: İnnovasiya" ifadəsi ilə məşhur olan idarəetmə rəhbəri Peter F. Drucker, innovasiyanın təşkilatlar üçün necə əhəmiyyətli olduğunu vurğulamışdır.Texnoloji inkişaflar, iri həcmli böhranlar,təşkilatların dəyişən sosial-iqtisadi məqsədləri və rəqabət şərtləri təşkilatlar üçün innovasiyaları məcbur etmişdir.

**Məhsul və ya Xidmət İnnovasiyası-** "Mövcud xüsusiyyətlərinə və ya təyinatına görə yeni və ya vacib, təkmilləşdirilmiş mal və ya xidmətin təqdim edilməsidir". Məsələn: sürətli çatdırılma proqramları vasitəsilə internetdən alınan

məhsulları istənilən yerə gətirən müəssisələri innovasiyalara misal kimi göstərmək olar. Bundan əlavə, məhsulun gəliş mərhələlərinin müştərilər tərəfindən izlənilə bilməsi yenilikçi bir yanaşmadır. USB şarj ediləbilən batareyalar isə məhsulun innovasiyasına nümunə kimi verilə bilər.

Mövcud xüsusiyyətlərə və ya gözlənilən istifadələrə əsaslanan və əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş mal və xidmətlərin meydana gəlməsi məhsul yeniliyi adlanır. Məhsul innovasiyaları daha çox yeni məhsul və xidmətlər istehsal etməyi hədəfləyir.Bu yeni məhsullar istehsal olunur, yeni bazarlar və istehlakçılar qazanır və mövcud vəziyyətdən fərqli dəyişikliklər edərək məmnunluq səviyyəsini artırmaq mümkünlüyünü də təmin etməyi hədəfləyir (Wan D., Ong C. və Lee, F. 2005: p.262).

Məhsul innovasiyası şirkətin bazara təqdim etdiyi məhsul və xidmətlərdə baş verən dəyişikliklər birbaşa istehlakçının ehtiyacları ilə bağlıdır. Yeni məhsullar əsas məhsul ideyalarından, ixtiralardan və ya kəşflərdən yarana bilər. Məhsul yeniliyi yeni məhsul, xidmət və ya mövcud məhsul və ya xidmətin ömür müddətini və ya rəqabət dəyərini artıran tərəqqidir.

Xidmətlərdə məhsul innovasiyalarına-xidmətlərin təmin edilməsinin mühüm yollarında təkmilləşdirmələr (məsələn, səmərəlilik və ya sürət baxımından), mövcud xidmətlərə yeni əlavələr və ya funksiyaların əlavə edilməsi və ya tamamilə yeni xidmətlərin təqdim edilməsi daxil ola bilər. Məsələn, yüksək optimallaşdırılmış sürət və istifadə rahatlığını təmin edən İnternet bankçılıq xidmətləri, pandemiya dövründə əhalinin təhlükəsizliyini təmin etmək üçün evə çatdırılma xidmətlərinin həyat keçirilməsi kimi mühüm yeniliklər xidmət innovasiyasına ən bariz misaldır.

**Proses İnnovasiyası-** Yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş istehsal və ya çatdırılma metodunun reallaşmasıdır. Bu yenilik texnika, avadanlıq və ya proqram təminatı baxımından əhəmiyyətli dəyişiklikləri əhatə edir. Məsələn: kafe və restoranlar qapalı olduğu pandemiya dövründə bir çox şirkətlər yeni çatdırılma üsuluna keçdi.Kafelər Wolt, Bolt food və s. tətbiqi ilə sifarişləri evə çatdırmağa başlamışdır.Bu da proses innovasiyasına nümunədir.

Proses innovasiyası məhsul və xidmətlərin inkişafı, keyfiyyət və etibarlılığının təkmilləşməsi sayəsində müştəriyə təklif olunan dəyərin artmasına töhfə verir. Həmçinin proses innovasiyası yeni və ya təkmilləşdirilmiş məhsul və ya xidmətin istehsalı və ya çatdırılması prosesini ifadə edir və şirkətə eyni məhsulu daha az xərclə istehsal etmək, daha çox qazanc əldə etmək imkanı yaradır.

Proses innovasiyasının ən klassik nümunəsi Toyota tərəfindən 1950-ci illərdə hazırlanmış "vaxtında istehsal" sistemidir. Yalnız bu sistemlə məhsullar və hissələr lazım olduğu anda və lazımi miqdarda istehsal olunur. Sistem ehtiyat məhsuldarlığı artırır və miqdarını saxlayaraq dəyişikliklərə tez reaksiya verərək elastikliyi təmin edir. Proses innovasiyasına misal olaraq Wall Mart-ın uğurunu göstərmək olar. 1973-cü ildə Ərəb neft embarqosu səbəbindən artan enerji qiymətlərinin xərclərə mənfi təsirindən xilas olmaq üçün Wall Mart mağazalara ən yaxın anbarlarını şəhər mərkəzindən avtomobillə maksimum on iki saatlıq məsafədə açmağa başladı.Başqa sözlə, sənayedəki digər rəqiblərdən fərqli olaraq, Wall Mart böyük bir anbarın ətrafında mağazalarını yerləşdirməyə başladı. Bu paylama mərkəzləri zamanla Wall Mart-ın fərqli elementinə çevrildi. Edilən təkmilləşdirmələrlə bu paylama mərkəzlər əhəmiyyətli xərclərin azaldılmasını təmin edən ağıllı anbarlara çevrildi.Bu anbarlar hazırlanmış sistemlə hər bir mağazanın inventarını birbaşa anbara alınmasını təmin etmişdir.

**Marketinq İnnovasiyası-** “Məhsulun dizaynı və ya qablaşdırılması, məhsulun yerləşdirilməsi, məhsulun təşviqi (təşviqat) və ya qiymətində əhəmiyyətli dəyişiklikləri ehtiva edən yeni marketinq üsuludur. Apple məhsulunu alan kimsə Apple markasından istifadə edəcəyi digər məhsullara üstünlük verir, bu da istifadəni asanlaşdırır; çünki məhsullar bir-birini tamamlayır. Buna görə deyə bilərik ki, Apple marketinq innovasiyasını uğurla həyata keçirir; çünki,beləliklə, marka müştəri üçün məcburi olur.

**Təşkilati İnnovasiya-** Firmanın iş təcrübələrində, iş yerinin təşkilində və ya xarici əlaqələrdə yeni təşkilati metodun həyata keçirilməsidir.Dünya nəhənginə çevrilmiş Google-un işçilərini istehsala və dizayna həvəsləndirəcək mühitlərin yaradılması təşkilati innovasiya üçün bir nümunədir.

**Radikal (Dağıdıcı) İnnovasiya-**Mövcud texnologiya və üsullardan imtina edərək tamamilə yeni bir məhsul, xidmətin, prosesin və ya strategiyanın tətbiqidir. Əvvəlki vasitələri atan, ya da əvvəllər həll edilməmiş problemləri həll edən oyunu dəyişdirən yeniliklərdir (Christensen C. və Nair H., 2012: p.55). Məsələn: 2007-ci ildə Steve Jobs "smartfonu yenidən kəşf etdik" sözləri ilə iPhone-un bazara çıxarılması və televizora baxan insanların anlayışını tamamilə dəyişən "Netflix" tətbiqi radikal innovasiya nümunələridir.

**Artan İnnovasiya-** Mövcud texnologiya və metodların inkişafı hesabına əldə edilən innovasiya üsuludur. Məsələn: iPhone üçün yeni funksiyalar əlavə edilərək Apple-ın yeni iPhone modellərini təqdim etməsi artımlı innovasiya nümunəsidir. Artan innovasiyalar- mövcud proseslər, məhsullar və xidmətləri genişləndirmək və təkmilləşdirmək üçün kiçik müdaxilələrdir. Məsələn, mobil telefon köklü bir yenilikdir, lakin sonradan əlavə kamera, MP3 player artan yenilikdir.

**Sosial innovasiya-**Sosial innovasiya- sosial dəyişikliklərin istiqamətinə təsir edən və problemlərin həllinə qarşı mövcud tətbiqlərdən daha yaxşı institusionallaşdırmağa malik yeniliklərdir. Sosial innovasiya cəmiyyətin müxtəlif təbəqələrinə fayda verəcək dəyişiklik, innovasiya və təkmilləşdirmə proseslərinin tətbiqi və inkişafını təsvir edir.Sosial innovasiya digər innovasiya növləri ilə iç-içə hesab edilməlidir. Regional dəyişiklikləri sürətləndirməyə və ya məşğulluğu artırmağa yönəlmiş siyasi qərarlar onlayn xidmətlər və ömür boyu təhsil xidmətlərini sosial innovasiyalara misal göstərmək olar.

Müxtəlif tətqiqatçılar sosial innovasiyanı müxtəlif cür tədqiq edir.Bəzilərinə görə "sosial vəziyyəti yaxşılaşdırmaq və ya hər bir yeni yanaşma, təcrübə və ya təcrübə sosial problemin həllini tapmaq üçün hazırlanmış hər yeni "müdaxilə və ya məhsul" kimi, digərlərinə görə "insanların həyatında əsl fərq yaratmaq üçün sosial və iqtisadi problemlərin həlli üçün konkret yollar tapmaq" kimi müəyyən edilir. Phills və başqaları sosial innovasiyanı, "daha təsirli, səmərəli, davamlı və ya sadəcə mövcud həllərdən effektiv olan və yaradılmış dəyərin fərdlərdən əlavə bütövlükdə cəmiyyətə təsir edən sosial bir problemin yeni bir həlli" olaraq ortaya çıxdığını bildirsə də, bunun əksinə, Pol və Ville fərdi rifahı prioritetləşdirməklə "sosial

innovasiyaların fərdi rifahın yaxşılaşdırılmasına yönəlmiş yeni ideyalar ətrafında baş verir" fikrini söyləmişdir.

Müxtəlif elm sahələrindən və müxtəlif institutlardan olan tədqiqatçılar tərəfindən sosial innovasiyanın təriflərinin müxtəlifliyi diqqəti cəlb etsə də, təriflər araşdırıldığında ortaq ifadələrin və məqsədlərin ifadə edildiyi görünür.Əksər təriflərdə məqsəd cari və ya potensial problemlərə həll yolları tapmaq və ictimai münasibətləri formalaşdırmaq kimi ifadə edilir. Bu məqsədə çatmaq üçün qeyd olunan alətlər yeni və ya təkmilləşdirilmiş məhsullar, xidmətlər, ideyalar, təcrübələr və yanaşmalar uğurlu olduğu halda problemlərin həlli ilə sosial faydaların ortaya çıxması, həyat keyfiyyəti və rifahının yüksələcəyi gözlənilir.

Bu gün rəqabət üstünlüyünün müəyyənedicisi artıq yalnız xərclər deyil.
İnnovasiya- bazarın reaksiya sürəti, məhsulun ömrünün qısalması, məhsul və xidmət keyfiyyəti, dizayn, yeni məhsul və xidmətlərin inkişafı, müştərilərin istəkləri məhsul və xidmətlərin istehsalı, yeni idarəetmə və təşkilat modelləri və s. amil də iştirak edir və bu amillər xərclərdən daha vacibdir. Yeni bazarlara daxil olmaq, mövcud bazar payını artırmaq və rəqabət gücünü artırmağın da yolu yenilik edə bilməkdən ibarətdir. Bütün bu amillər müəssisələrin innovasiya həyata keçirməklərini zəruri edir (Elçi Ş., 2007: s.27).

İnnovasiya bir çox fərqli yollarla bir iş üçün rəqabət üstünlüyü təmin edə bilər. O yolları aşağıdakı kimi sadalamaq olar:

- Məhsullarda, xidmətlərdə və ya proseslərdə yenilik etmək;
- Təqlid edilməsi çətin olan dəyişikliklər etmək;
- Doğru zamanda doğru yeniliyi təqdim etmək;
- Xammala, enerjiyə və vaxta qənaət etmək;
- Ətraf mühitə zərərsiz məhsullar istehsal etmək (Tidd J., Bessant J. və Pavitt K., 2001: p.11).

Ölkələrin əhalisi və iqtisadiyyatı üçün innovasiyaların müsbət nəticələrinə aşağıdakılar daxildir:

- Sosial rifahın yüksəldilməsi;
- Yaşayış səviyyəsinin yüksəldilməsi;

- Davamlı iqtisadi artımın təmin edilməsi;
- Məşğulluğun artması;
- Resurslardan səmərəli istifadə;
- Yeni xammal mənbələrinin aşkar edilməsi;
- İxracın artırılması;
- Patentlərin sayının artması;
- Regional inkişafa töhfə vermək;
- Enerji resurslarından səmərəli istifadə;
- Sahibkarlığın artırılması;
- Xarici asılılığın azalması.

Yeniliyin bu təsirlərindən faydalanmaq və bu təsirləri maksimum dərəcədə artırmaq üçün ilk növbədə fərdlər, cəmiyyət, qurum və təşkilatlar baxımından müəyyən səviyyədə məlumatlandırılma, innovasiyanın əhəmiyyətinin dərk edilməsi,bu mexanizmlər arasında əlaqə və qarşılıqlı əlaqənin qurulması tələb olunur.

İnnovasiyanın mənbəyinə görə innovasiya növləri:

Qapalı İnnovasiya- Qapalı innovasiya dövrü kimi adlanan bu dövrdə şirkətlər innovasiya fəaliyyətlərini çox gizli şəkildə davam etdirirlər və tapdıqları yenilikləri şirkət sirri kimi gizli saxlayırlar.

Açıq İnnovasiya- qloballaşma ilə məlumatlar xarici mənbələrdən məhdud və ya tamamilə əldə edilir.Daxili resurslarla təmin edilən qapalı innovasiya prosesinə artıq üstünlük verilmir. Artıq şirkətlər, həmçinin, hər cür yeni ideyalar, işçi qüvvəsi, texnologiya və metodları şirkətə daxil edərək bizneslərinə tətbiq edirlər. Bu cür proseslər açıq innovasiya adlanır.

İnnovasiya yeni və daha effektiv proseslərin, xidmətlərin, məhsulların, texnologiyaların tətbiqi, habelə onların uğurlu qəbulu və istifadəsi yolu ilə yaradılması və ya istifadəsi, inkişafdır.İnnovasiya, iqtisadi artım, sosial inkişaf və biznesin rəqabət qabiliyyətinin artmasına kömək edir. İnnovasiya, müəssisələr və ya

şirkətlər daxilində rəqabət, səmərəlilik, məhsuldarlıq, bazarlara və ya idarəetməyə girişdə faydalılıq və dəyişikliklərlə əlaqələndirilir.

## 1.2 Xarici ölkələrin təcrübəsi üzrə pandemiya dövründə həyata keçirilən əhalinin innovativ fəaliyyətinin xüsusiyyətləri

Bir toplumda və ya bölgədə müəyyən bir xəstəliyin bütöv bir mövsüm daxilində və ya hər ay normal səviyyədən daha çox insanda baş verməsi epidemiya adlandırılır.Keçmişə nəzər saldıqda, milyonlarla insanın ölümünə səbəb olan epidemik xəstəliklər ölkələrin əhalisi, iqtisadiyyatı, idarəetmə forması, dili, qələbələri, turizmi, incəsənəti,üstəlik, hətta həyat tərzinə də təsir etməklə ictimai münasibətləri korlayıb. Yenə geriyə baxanda, insanların bir çox epidemiyalarla qarşılaşdığı və bu xəstəliklərin təkcə regional deyil, qlobal ölçüyə çatdıqları görülür.

**Cədvəl 1: Tarixdə görülən epidemiyalar və onların sosial-iqtisadi nəticələri**

| Xəstəlik | Tarix | Səbəb | Müalicə | Sosial-iqtisadi təsiri |
|---|---|---|---|---|
| Çiçək | 12-ci əsr | virus | peyvənd | uşaq ölümləri |
| Vəba | 14-cü əsr | bakteriya | antibiotik | bədəndə deformasiya və sosial təcrid |
| Ebola,donuz qripi,sars | 21-ci əsr | virus | dərman müalicəsi, peyvənd | qlobal epidemiya,turizmdə qısamüddətli regional azalma |
| Covid-19 | 2019 | virus | | kütləvi ölümlər, sosial-iqtiasdi həyatın geriləməsi |

**Mənbə:** Alpago H. və Alpago D. O., IBAD Journal of Social Sciences(8), 2020, s.99-114

Cədvəl 1-də göründüyü kimi hər əsrdə bir və ya bir neçə epidemiya hər mənada dünyanı silkələyib çoxlu insanın ölümünə səbəb olub.Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən xəstəliyə çevrilmiş infeksiyanın epidemiya adlandırılması aşağıdakı şərtlərə tabedir:

- Daha əvvəl görülməmiş yeni bir xəstəlik olması;
- İnsana törədici tərəfindən ötürülməsi və ağır xəstəlik törətməsi;
- Xəstəliyə səbəb olan virusun sürətlə və davamlı yayılması (Aslan R., 2020: s 35-41).

Covid-19 dekabr ayında Çinin Wuhan şəhərində meydana çıxmışdır. Yüksək hərarət, öskürək və tənəffüs çətinliyi əlamətləri ilə özünü göstərən Covid-19 13 yanvar 2020-ci ildə bir virus növü olaraq təyin olundu. ÜST Covid-19 adına qərar verərkən məsləhətçilər yalnız xəstəliyə səbəb olan virusun növünə diqqət yetirdilər. Co və Vi coronavirusdan, "d" ingiliscə xəstəlik mənasını verən"disease" sözündən, 19 isə halların görünməyə başladığı 2019-cu ildən irəli gəlir.

**Cədvəl 2: Dünyada Covid-19**

| | |
|---|---|
| Yoluxanların sayı | 106,378,434 |
| Ölənlərin sayı | 2,321,381 |
| Ölüm nisbəti | 0,022 |
| Sağalmış xəstələrin sayı | 78,038,620 |
| Bərpa dərəcəsi | 0,73 |
| Yoluxmanın dünya əhalisinə nisbəti | 106,378,434 / 7,844,261,520 = 0,014 |

**Mənbə**: Worldometer, Social Sciences Research Journal (SSRJ), 2021, Volume 10, Issue 1, p 79-89, 07.02.2021

Cədvəl 1-də göründüyü kimi, 7 fevral 2021-ci il tarixli məlumatlara görə dünya üzrə cəmi 106 milyon 378 min yoluxma baş verdi. Həyatını itirən xəstələrin sayı 2 milyon 321 min, sağalanların sayı isə 78 milyon 38 min nəfər olmuşdur.

COVID-19 pandemiyasının təsiri ilə bütün dünyada istehsal,turizm, təhsil və səhiyyə kimi sektorlarda epidemiyanın daha da yayılmasının qarşısını almaq üçün iş vaxtından məşq saatlarına, kafe və restoranlarda oturma tənzimləmələri, kollektiv təşkilatlara qədər bir çox sahədə məhdudiyyətlər tətbiq edilib və bu məhdudiyyətlər nəticəsində mal və xidmətlər istehsalın azalması ilə iqtisadiyyatlarda daralmalar baş verdi.

COVID-19 pandemiyası bütün dünyada məktəbləri və təhsil sistemlərinin inkişaf imkanlarına təsir etmişdir. Bir çox tələbələr üçün pandemiya bilik, bacarıq və əvvəllər mənimsənilmiş fənlərin itirilməsi ilə nəticələnmiş, bundan əlavə, bir çox tələbə məktəbi tərk etmişdir. Bəzi ölkələrdə məktəbdən yayınma halları artmışdır. Bu təsirlər xüsusilə əlverişsiz şəraitdə yaşayan və ya təhsilə evdən davam etmək üçün texnologiyası və imkanı olmayan tələbələr arasında özünü göstərmiş və bu ölkələr daxilində təhsil bərabərsizliyinin artmasına səbəb olmuşdur. Bu təsirlərin Cənub yarımkürəsində daha sıx olması da ölkələr arasında təhsil bərabərsizliyinin

artmasına səbəb olmuşdur.Pandemiyanın yol açdığı bu öyrənmə itkilərinin tələbələr üçün ömür boyu gəlirlərinin 3%-lik bir azalmağa səbəb olduğu söylənilmişdir (Hanushek E. və Woessmann L., 2020).Bir çox şirkət evdən işləmə modelini mənimsəyərkən bir çox gündəlik fəaliyyət onlayn mühitlərə keçməyə başladı. Onlayn görüşlər, onlayn konsertlər və təlimlər, sosial mediada canlı yayımlar evdən kənarda həyata keçirilə bilən təşkilatlanma və fəaliyyətlər kimi bir çox gündəlik fəaliyyət onlayn mühitlərdə həyata keçirilməyə başladı.

Hökumətin tətbiq etdiyi məhdudiyyətlər və qadağalarla yanaşı evdə sərf olunan vaxt artdı. Bu artımla insanların vərdişləri və həyat tərzi üslubunda dəyişikliklər baş verdi. Qlobal Veb İndeksinin 31 Mart-2 Aprel tarixlərində 17 ölkədə istehlakçılar arasında edilən araşdırmaya görə onların 95%-dən çoxu pandemiya dövründə daha çox sosial mediada vaxt keçirdiklərini və daha çox xəbərlərə baxdıqlarını bildiriblər. Tədqiqatda iştirak edən 4 nəfərdən 3-ü smartfonda bunu təsdiqləmişdir (Global Web Index, 2020).

Pandemiya dövrü ilə birlikdə istehlakçı davranışında ən əhəmiyyətli dəyişikliklərdən biri də istehlakçıların qida və gigiyena məhsullarını ehtiyatda saxlamasıdır.Stok artımı ilə pərakəndə satış sahəsində sürətli tələbat qalxdı. Pandemiya dövrü ilə rəqəmsallaşma prosesi geniş vüsət aldı. Bu müddətdə evdən iş üsulu ilə onlayn görüşlər, rəqəmsallaşma prosesində üz-üzə təhsildən onlayn təhsilə keçid effektiv olmuşdur.Distant təhsil ilə onlayn söhbət və ünsiyyət tətbiqləri tez-tez istifadə olunaraq həyatın mərkəzinə yerləşmişdir. Zoom, Skype, Microsoft Teams, Facebook Messenger kimi bir çox insanın iştirakı ilə səs və video zənglərlə təmin edən tətbiqlər pandemiya dövründə evdən təhsil və təlim işinin təşkilinə şərait yaratmışdır.

Səhiyyə Nazirliyinin çağırışı ilə başladılan sosial təcrid prosesi ilə birlikdə başlayan evdə qalma prosesi və ardınca alver mərkəzləri, kafelər və restoranların müəyyən müddətə bağlanması qərarı ilə istehlakçılar elektron ticarətə üz tutmuşdur. Pandemiyanın ilk dövründə əl dezinfeksiyaedici, məişət təmizliyi məhsulları və digər gigiyena məhsullarına tələbat yaranıb və bir çox e-ticarət saytlarının

ehtiyatlarını tükənmə həddinə çatdırıb.Bu sıx tələbata uyğun olaraq, məhsulların logistikasını təmin edən kargo şirkətlərinə də təsir göstərmişdir.

COVID-19 pandemiyası bütün dünyada çaxnaşma və narahatlıq yaratdı, ölkələr "evdə qal" çağırışını dəstəkləmək üçün təhsil proseslərini müvəqqəti olaraq dayandırmış və tələbələrə distant təhsil almağa dəstək verilmişdir. 4 mart 2020-ci il tarixindən etibarən UNESCO üç fərqli qitədə 22 ölkədə məktəblərin bağlandığını elan etdi (Üstün Ç. və Özçiftçi S., 2020).

Bu pandemiya zamanı epidemiyadan daha çox təsirlənəcək faktorlar tələb, təklif və bunlarla bağlı olan maliyyə sektorlarıdır.Tələbdəki azalmanın bir hissəsi xüsusilə İEÖ-də dövlət xərcləri və dövlət dəstəyi, vergi güzəştləri, layihələr və ya maddi yardım vasitəsilə tənzimlənə bilər.Amma artan narahatlıq səbəbilə dövlətin istehlakçıların bütün ehtiyaclarını ödəyə bilməsi mümkün deyil.

Tələb olmayan yerdə isə təklif də azalır, kütləvi böhranlar ortaya çıxır.Maliyyə tərəfindən baxdıqda isə bu narahatlıq və qorxu investorların bazardan yayınmasına səbəb olur.Bu halların nəticəsində qlobal fond birjalarında çöküş müşahidə edilir və valyutaların qeyri-stabilliyinə səbəb olur (Unido,2020).

2020-ci ildə sürətlə yayılmağa başlayan Covid-19 pandemiyasının təsiri ilə qlobal sistemdə qeyri-müəyyənlik indeksi son 60 ilin ən yüksək həddinə çatmışdır.Covid-19 virusunun səbəb olduğu iqtisadi və sosial faktorlar digər böhranlarla müqayisədə daha yüksək təhlükəlidir (Inman, 2020).

**Qrafik 1: Pandemiyalar dövründə qlobal qeyri-müəyyənlik indeksi**




**Mənbə:** Ahir H., N. Bloom., D. Furceri, World Uncertainty Index (WUI), 2018

OECD (Organisation for Economic Co-operation and Development) baş katibi Angel Gurria, pandemiya prosesi zamanı ictimai səhiyyə tədbirlərinin həyata keçirilməsi nəticəsində yüksək xərclər səbəbindən bir çox ölkələrin iqtisadiyyatı durğun dövrə girəcəcəyini və bu vəziyyət pandemiyanın ikinci dalğası olan ölkə iqtisadiyyatlarına mənfi təsir göstərəcəyini,2020-ci ildə gözlənilən iqtisadi daralmanın 7,5% səviyyəsini keçə biləcəyini ifadə etmişdir. İqtisadi normallaşmanı mümkün qədər tez bərpa etmək üçün COVID19 ilə mübarizəni davam etdirmək,gələcək iqtisadi şokların təsirini azaltmaq üçün ölkələr daha ciddi tədbirlər görməli,koordinasiyalı xidmət göstərilməsinin və özəl sektorun dəstəklənməsinin vacibliyini vurğulamışdır (OECD, 2020).

Müəssisələr tərəfindən qismən də olsa həyata keçirilən iş saatlarının və evdən işləmə təcrübələrinin azaldılması ilə sağlamlığın qorunmasına çalışılır (ILO, 2020).

Covid-19 virusuna qarşı görülən bütün tədbirlərə baxmayaraq,virusun hava nəqliyyat vasitələrində daha sürətli yayılması hava nəqliyyatına qarşı şübhənin artmasına səbəb olmuşdur.Bu baxımdan virusun yayılmasına daha təsirli vasitə olan hava nəqliyyatı, dünya səviyyəsində daha çox istifadə edilən nəqliyyat forması olmasına baxmayaraq cəmiyyət tərəfindən tələb olunmayan nəqliyyat növünə çevrilmişdir (Lİ S., Wang Y., Xue J., Zhao N., Zhu T., 2020).

Ölkələrin karantin tədbirləri çərçivəsində sərhədləri bağlaması nəticəsində COVID-19 pandemiyası turizm sənayesini çətin vəziyyətdə qoydu. 2020-ci ildə

beynəlxalq turistlərin sayı 20-30% azalmış, bu vəziyyətin sektora 30-50 milyard dollarlıq əlavə yük gətirəcəyi bildirilmişdir.Səyahət qadağalarının xərclərinin və səyahət qiymətinin artacağı proqnozlaşdırılmışdır. Ümumdünya Turizm Təşkilatı maliyyə və turizm sektoruna siyasi dəstək, beynəlxalq inkişaf və ianə təşkilatları ilə əməkdaşlıq bərpa planlarının həyata keçirilməsinin zəruriliyini vurğulamışdır (UNWTO, 2020).

COVID-19 pandemiyasının davam etməsi kənd təsərrüfatı sektoruna mənfi təsir göstərir. Kənd təsərrüfatı istehsalı azaldıqda daha çox insan aclıq yaşayacağı barəsində mütəxəssislərin fikri diqqətəlayiqdir. Təcili tədbirlər görülməsə, uzun müddət ərzində yüz milyonlarla insanların qidadan məhrum olacağı və qida çatışmazlığı gözlənilir. 2020-ci ildə yaşanan iqtisadi durğunluq nəticəsində kənd təsərrüfatı istehsalçılara dəstək verilməsə 2021-ci ildə ərzaq qıtlığının olacağı proqnozlaşdırılır (FAO, 2020).

Bir çox sektorlar iqtisadi çətinliklərlə üzləşsə də, texnologiya şirkətlərində işlər pandemiyadan əvvəlkindən daha yaxşıdır. Amazon, Apple, Facebook və Google kimi dünyanın ən böyük texnologiya şirkətləri evdən işləməyə davam etməsinə baxmayaraq, COVID-19 dövründə Nyu Yorkda ofis tutumunu artıraraq, sosial məsafə qaydasına uyğun olaraq, ümumilikdə 15 min yeni işçinin işə götürülməsi üçün uyğun olan infrastruktura çatmışdır.

Dünyada səhmlərinin dəyər qazanması gözlənilən müəssisələrə nəzər saldıqda, e-ticarətin yüksəlişini gözləyən ABŞ bankı JPMorgan Amazon-un ən gəlirli şirkət, İsveçrədə yerləşən investisiya bankı UBS, Çin mərkəzli e-ticarət şirkəti Alibaba və texnologiya şirkətləri Netflix, Alphabet və Facebook olacağı gözlənilməkdədir. Onlayn musiqi axını platforması Spotify, Çin əsaslı sosial media tətbiqi TikTok, oyun şirkətləri Activision Blizzard və Take-Two Interactive kimi texnoloji müəssisələrin pandemiya dövründə mənfəətini və şirkət ölçülərini artıracağı gözlənilir. Həmçinin yemək sifariş etmək Ocado, Just Eat Takeaway, Domino's Pizza Group, əl sabunu, əl təmizləyicisi və digər dezinfeksiyaedici və gigiyena məhsulları istehsalçısı şirkətlər (ABŞ-da yerləşən gigiyena məhsulları istehsalçısı Clorox şirkəti fevral ayının sonu etibarilə səhmlərində artım yaşanıb) e-ticarətin

geniş yayılması nəticəsində kargo şirkətləri də pandemiya dövrü ilə birlikdə iş həcminin artması gözlənilir. Pandemiya dövründə ölkəmizdə elektron ticarət şirkətləri, hazır qida müəssisələri, dərman istehsalçıları və kargo şirkətləri öz biznes potensiallarını artırmışdırlar.

Dünya daim dəyişir və inkişaf edir. Müəssisələr fəaliyyətini davam etdirmək üçün makro və mikro mühitlərdəki dəyişikliklərə uyğunlaşmalıdırlar. Müəssisələr bu dəyişiklikləri qəbul etməsələr, mənfəətlərini və rəqabətlərini itirmək riski ilə üzləşə və hətta fəaliyyətlərini dayandırmaq məcburiyyətində bilərlər.

Bütün dünyaya təsir edən pandemiya prosesi baş vermiş dəyişikliyə uyğunlaşma prosesində şirkətlərin müştərilər ilə işgüzar münasibətlər qurması tərzinə də təsir göstərmişdir.İnternetin gündəlik həyatın demək olar ki, bütün sahələrində istifadəsi və inkişafı işgüzar fəaliyyətlərdə dəyişikliklərə səbəb olmuşdur.İnsanların yeni alış-veriş vərdişlərinin artması, ənənəvi alış-veriş sistemindən fərqli bir alış-veriş sisteminin inkişafı üçün şərait yaratmış və bu dəyişiklik müxtəlif sahələrdə istehsalçıların sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində təsirli olmuşdur (Yılmaz C., 2010: s.12-21) .

Covid-19 epidemiyasından təsirlənən ölkələrin karantinə və təcrid olunmasına görə, dünya üzrə istifadəçilərin sayı və onlayn alış-veriş proqramlarının effektivliyi çoxalmışdır. 2020-ci ilin mart ayının ilk həftəsindən indiyə qədər yeni və aktiv olan e-ticarət istifadəçilərinin sayında davamlı artım müşahidə edilmişdir.Bundan əlavə, Covid-19 virusu istehlakçı davranışını kəskin şəkildə dəyişdirmiş və yeni sistemin formalaşmasına səbəb olmuşdur. Alınan tədbirlər və müştərilərin tələbləri istiqamətində pandemiyanın mənfi təsirlərinə baxmayaraq, fiziki mağazalardan fərqli olaraq, onlayn mağazalar müntəzəm olaraq satışlarını artırır və müştərilər qazanmağa davam etmişdir.Aşağıdakı qrafikdə bəzi ölkələrdə pandemiya dövründə e-ticarət həcmində meydana gələn dəyişim verilmişdir (Qrafik-2):

**Qrafik 2: Pandemiya dövründə bəzi ölkələrdə e-ticarət həcmində meydana gələn dəyişim**




**Mənbə:**Araşdırmalar nəticəsində müəllif tərəfindən hazırlanmışdır

Pandemiya dövründə bəzi məhsullar vardır ki, onlara tələb azaldığına görə e-ticarətdə daha az alınmışdır.Bunlara misal olaraq tətillə bağlı əşyaları (üzgüçülük əşyaları, günəş gözlükləri və s.) qeyd etmək olar.

Ümumdünya Səhiyyə Təşkilatının rəhbərinin 3 aprel 2020-ci il tarixli bəyanatında qeyd edildiyi kimi, “COVID-19 sağlamlıq böhranından daha çoxudur, böhranın sosial və iqtisadi nəticələrinə hazır olmaq lazımdır”. Pandemiya prosesində ölkə miqyasında karantinlər, istehsal və istehlakda azalmalar, beynəlxalq təchizat zəncirlərində fasilələr baş vermişdir. Asiya, Avropa və ABŞ epidemiyadan ən çox təsirlənən bölgələr olsa da, nəqliyyat və turizm sektorları böhrandan mənfi təsirləndiyi üçün qlobal təchizat zəncirinə də mənfi təsir göstərmişdir (Lenzen M, Li M, Malik A, Pomponi F, Sun Y-Y, Wiedmann T., 2020).

Covid-19 epidemiyasının təsiri kənd təsərrüfatı və qida sektorlarında da hiss olunmuşdur.Lakin, bu təsirlər kənd təsərrüffatı və bu məhsulların unikal xüsusiyyətləri səbəbilə digər sektorlardan fərqlənir.Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalı, təbii şərait, bitki və heyvandarlıq məhsullarının istifadə müddətinin uzunluğu, kənd təsərrüfatı məhsullarının tez istehlak olunması, onlara qarşı tələb və təklif səbəbilə bu təsirlər daha aşağıdır.

Bundan əlavə, Covid-19 epidemiyası nəticəsində işsizlərin sayı sürətlə artır.Beləliklə, alıcılıq qabiliyyəti aşağı düşür və bu da ərzaq tələbatına mənfi təsir göstərir (Schmidhuber J., Pound J., Qiao B., 2020). Açıq havada qida və içki istehlakı nisbətində 80% azalma müşahidə edilmişdir.

Ölkələr virusla mübarizə zamanı qida çatışmazlığının qarşısını almaq üçün qida təchizatında zəruri dəyişikliklər etmək üçün bütün imkanlardan istifadə etməlidir.

Dünya ölkələri elan etdikləri iqtisadi paketlərlə ictimaiyyətə və şirkətlərə dəstək vermişdir. Yaponiya 2.2 trilyon dollar, ABŞ 2 trilyon dollar, Almaniya 750 milyard avro, Fransa 345 milyard avro, İtaliya 25 milyard avro, Çin 183 milyard dollar, Böyük Britaniya isə 81 milyard dollar dəyərində iqtisadi yardım paketi açıqlamışdır.Bu paketlər daxilində ictimaiyyət, işsizlər, aztəminatlı insanlar, səhiyyə müəssisələri, müəssisələr və böhranda olan sahələrə edilən iqtisadi yardımlarla cəmiyyətin bütün təbəqələrinin dəstəklənməsinə çalışılır.

Virusun yoluxuculuğunun qarşısını almaq üçün bir çox ölkədə və Azərbaycanda da karantin tədbirləri həyata keçirilib, maskalardan istifadə öhdəliyi qoyulub, şəxslərin bir-biri ilə təmasdan çəkinməsi, sosial məsafəni, dezinfeksiyaedici vasitələrdən istifadəni və əlləri yuma üçün qorumaq üçün xəbərdarlıqlarla maarifləndirmə genişləndirilmişdir.

Karantin vəziyyəti hərəkət imkanlarını məhdudlaşdırdığı üçün iqtisadi fəaliyyətə də mənfi təsir göstərir (Qrafik-3).

**Qrafik 3: Karantin və iqtisadi fəaliyyətin qarşılıqlı əlaqəsi**




**Mənbə**: IMF, World Economic Outlook International Monetary Fund, 2020

Qrafikdə göstərildiyi kimi karantin qaydaları ÜDM, istehsal, satış, investisiyaların azalması və işsizliyin artmasına təsir etmişdir.

Bundan əlavə, pandemiya mövcud bərabərsizliyi və yoxsulluğu artırmışdır.Bəzi Latın Amerikası ölkələrində Cini indeksi 3-4%, yoxsulluq isə -13%

artmışdır (Lustig N., Pabon V.M., Sanz F., Younger S. D., 2020).Avropada isə əmək haqqı arasında ümumi bərabərsizlik orta hesabla 3,5% miqdarında, yoxsulluğun isə 4,9% nisbətində artdığı müşahidə edilmişdir (Palomino J. C., Rodríguez J. G. və Sebastian R., 2020).

Korona virusunun kütləvi xarakter alması 2020-ci ilin ilk yarısında qlobal miqyasda böyük iş itkilərinə səbəb olmuşdur.Sadəcə ABŞ-da 2020-ci ildə ilk yarısında işsiz əhalinin sayı 30 milyonu keçmiş və bu 2008-ci il böhranından sonra qeydə alınan işsizlik rəqəmlərini aşmışdır.

Nəqliyyat və turizm sektorlarında işçi qüvvəsinin yüksək olduğu Yunanıstan, İspaniya, İtaliya kimi bir çox Avropa ölkəsində isə işsizlik səviyyəsinin 10 faizdən çox olacağı təxmin edilmişdir. İşsizlikdən sığorta sistemləri və sosial müdafiə imkanlarının zəif olduğu İEOÖ- işsizliyin şiddətinin daha sıx hiss edilməsi qaçılmazdır (Kaya D. G., 2020, s.221-237).

**Qrafik 4: İşsizlik səviyyəsinin illərə görə dəyişimi**




**Mənbə:** https://data.worldbank.org/, 2020

İzolyasiya tədbirləri müştərilərlə qarşılıqlı fiziki əlaqədə olan iş yerlərində daha yüksək işsizlik təsirinə malikdir. Maliyyə, bank işi və idarəetmə kimi uzaqdan işləməsi mümkün olan iş yerləri iş itkilərindən daha az təsirlənən sahələrdir.

Pandemiya aşağı ixtisaslı və aşağı maaşlı işlərə daha çox və yüksək ixtisaslı işlərə daha az zərər vermişdir. Belə olan halda isə əhali arasında gəlirin bərabərsizliyi yaranacaqdır.

Bloomberg-in yaratdığı məlumat bazasına əsasən 7 fevral 2021-ci il tarixinə dünyada 128 milyon insana iki doza peyvənd vurulub. Sinovac, Bionthec/Pfizer,

Moderna, Sputnik V və Oxford/Astrazeneca vaksinləri ən məşhur peyvəndlərdir. Sinovac qeyri-aktiv,Biothec/Pfizer və Moderna mRna əsaslı peyvəndlərdir, Sputnik V və Oxford/Astrazeneca isə virus vektor əsaslı vaksinlərdir.Peyvəndin sürətləndirilməsi, peyvəndləri almağa maddi gücü olmayan ölkələrə dəstək verilməsi və maddi-texniki problemlərin həlli pandemiyanın sona çatması üçün çox vacibdir (OWID, www.ourworldindata.org/COVID-vaccinations, 13.02.21).

Koronavirusa görə ölkələrdə karantin tətbiq edilməsi xidmətə tələbatın azalması ilə nəticələndi. Buna görə istehsal və logistika fəaliyyətləri ləngimiş və özü ilə birlikdə işsizliyi də gətirmişdir.Bunun qlobal tənəzzülə səbəb olacağı proqnozlaşdırılmışdır (McKibbin W. və Fernando R., 2020).

Dünya əhalisinin 25%-ni təhdid edən bu epidemiya ilə əlaqədar görülən tədbirlər çərçivəsində səyahət məhdudiyyətləri, komendant saatları, iş saatlarına edilən tənzimləmələr səbəbiylə ödənişsiz məzuniyyət siyasətləri, həm sektorda dəyişiklik edilməsini tələb etmiş, istehsalda dəyişikliklərə səbəb olmuş, həmçinin istehsala və istehsala olan tələbata təsir göstərmişdir. Bu dəyişikliklər dünya səviyyəsində tələb və təklif, milli gəlir çərçivəsində proqnozlarına təsir etdi. Beynəlxalq təşkilatların hesablamalarına görə, bu, Böyük Depressiyadan sonra ən ciddi iqtisadi böhran olmaq potensialına malikdir.

Bir çox ölkələr pandemiya ilə mübarizə üçün sərt tədbirlərə əl atsa da, mübarizədə uğur qazanan ölkələr Almaniya, Cənubi Koreya, Yeni Zelandiya və Vyetnam birinci yerdədir. İnsan inkişafı yüksək səviyyədə olan ölkədə məlum olub ki, virusa qarşı həyata keçirilən tədbirlər effektli nəticə verməyib. Alınan tədbirlərdən sonra epidemiya ilə ən yaxşı mübarizə aparan ölkələr arasında göstərilən ölkələrdən biri olan Cənubi Koreyada gündəlik yoluxmaların sayı mart ayının sonlarına doğru azalmağa başladı və ölüm sayının artması dayanmışdır. Xəstəliyin daha çox yayıldığı xüsusi sahələrini təyin edərək, bu bölgələrdə əlavə tibbi avadanlıq və tibb işçiləri saxlanılmış, küçələrin dezinfeksiya edilməsi üçün xüsusi bölmələr ayrılmışdır. Ölkənin 2000-ci illərin əvvəllərində SARS virusuna görə bu cür epidemiyalara daha hazır olması bu uğura səbəblərdən biri kimi göstərilir.

Cənubi Koreyada pandemiya dövründə müxtəlif dəstək tədbirləri həyata keçirilmişdir.Hökümət tərəfindən aşağı gəlirli ailələrə maddi dəstək verilmiş, kiçik və orta biznesin inkişafının sabitliyi üçün böhrana qarşı tədbirlər həyata keçirilmiş, 4 fərqli növdə sığorta ödənişləri təxirə salınmışdır.

İrlandiya höküməti əhalini izolyasiya vəziyyətinə təşviq etmək üçün ətraf mühitdən özünü təcrid edərək karantinada işləyən hər bir şəxsə həftədə 350 avro ödəmişdir.

Gürcüstan hökuməti 100 dollar məbləğində başqa ölkələrə gedərək mövsümi işlərdə çalışan işçilərə birdəfəlik yardımlar vermişdir.

Türkiyədə sosial baxımdan zəif gəlirli ailələrə maddi yardımlar edilmiş və sahibkarlar üçün subsidiyalar ayrılmışdır.

Almaniya Federal Əmək və Sosial İşlər Nazirliyi pandemiya bitdikdən sonra könüllü olaraq razı olan və işi də bunu icra etməyə imkan verən işçilərin evdən çalışmasına icazə verən qanun layihəsi hazırlamışdır.

Müxtəlif ölkələrdə mərkəzi hökümətlə yanaşı yerli qurumlar da maraqlı sosial dəstək tədbirləri həyata keçirmişdir (Pandemiya dövründə iqtisadi vəziyyət, Ecovision hurnalı, 2020).

Epidemiya ilə mübarizədaə daha bir uğurlu ölkə Vyetnam kimi göstərilib. 2020-ci il fevralın 1-dən ölkədə bütün məktəblər bağlanmış, Çindən bütün uçuşların, sonra isə bütün beynəlxalq uçuşlar ləğv edilmişdir. Ölkəyə ayaq basan hər kəs üçün 14 günlük karantin isə təqdirəlayiq bir addımdır.COVID-19 xəstələri tez bir zamanda karantinə alınmış və təmasda olduqları insanlar nəzarətdə saxlanılmışdır.

# II FƏSIL. AZƏRBAYCANDA COVID-19 PANDEMIYASININ ƏHALININ INNOVATIV FƏALIYYƏTINƏ TƏSIRININ SOSIAL-IQTISADI CƏHƏTDƏN TƏHLILI VƏ QIYMƏTLƏNDIRILMƏSI

## 2.1 Covid-19 pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin təhlili

Koronavirusun yayılmasının qarşısının alınması, insanlarası təması minimuma endirmək üçün ölkəmizdə və bütün dünyada müxtəlif tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin bir çoxu insanlar arasında təmasın qarşısını almaq, gigiyena

qaydalarına riayət etmək və sosial məsafəni artırmaq məqsədini daşıyan tədbirlər idi. Şəhərlərarası və beynəlxalq səyahət məhdudiyyətləri,ənənəvi təhsildən onlayn təhsilə keçid, konsertlər və idman yarışları kimi ictimai fəaliyyətlərin təxirə salınması və ya ləğv edilməsi, ticarət mərkəzləri, restoranlar və kafelər kimi insanların kütləvi şəkildə toplandığı yerlərin bağlanılması və ya məhdud müddətdə xidmət göstərmələri iqtisadi cəhətdən ictimaiyyətə təsir etdi. Epidemiyanın yaratdığı maliyyə problemləri işsizlik, tələbatın azalması və istehsal çətinlikləri kimi iqtisadiyyata mənfi təsirlərə səbəb olmuşdur (Adıgüzel M., 2020: s.191-221).

Koronavirus səbəbi ilə ölkələrdə tətbiq edilən karantinlər istehlakçıların mal və xidmət tələblərinin azalmasına səbəb olmuşdur.Bu həm də istehsal və logistika zəncirindəki fəaliyyətlərin də ləngiməsinə səbəb olmuş və özü ilə bərabər işsizliyi də gətirərək qlobal tənəzzülə səbəb olacağı proqnozlaşdırılmışdır (McKibbin W. və Fernando R., 2020). Koronavirusla bağlı görülən tədbirlərə uyğun olaraq bir çox müəssisə və sektorlar mənfi təsirə məruz qalsa da, elektron ticarətə əksinə, müsbət təsir göstərdi.Karantin rejimi, sosial izolyasiya tədbirləri, insanların fiziki təmasdan qaçınması ilə birlikdə istehlakçılar ehtiyaclarını onlayn alışveriş saytlarından qarşılamağa yönəlmişdirlər.Koronavirus alış vərdişlərinin fiziki mağazalardan rəqəmsal kanallara keçməsinə səbəb olmuş və rəqəmsallaşma prosesini sürətləndirmişdir.

Virusun sürətli yayılmasına baxmayaraq bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da onlayn işləməyə başlanıldı və bunun müqabilində də rəqəmsal mediadan istifadə yüksək səviyyəyə çatdı.Kütləvi məkanlarda virus daha çox yayıldığı üçün insanlar daha çox e-ticarəti və onlayn alışverişi istifadə etməyə başlamışdır.Rəqəmsal platformada təmassız xidmət olduğu üçün virusa yoluxmaq riski də minimum endirilir və eyni zamanda məhsulu birbaşa, təmassız almaq təkcə sağlıq baxımından deyil, həmçinin, vaxt və enerji sərfi üçün də üstünlükdür.

Bildiyimiz kimi, pandemiya ən əsas da əhalinin işsizlik səviyyəsinə təsir etmişdir. İnsanların xəstəliklərə qarşı müqaviməti eyni olmadığı kimi, maddi durumu və iş şəraiti də eyni deyildir.Pandemiya dövründə ilk həyata keçirilən "evdə qal" şüarı kimi tədbirlər də sabit gəlirli və iş sığortası olan orta siniflər üçün nisbətən

uyğun olsa da, pandemiyanın işçilərin işini itirməsi və gündəlik işəmuzd çalışan və sabit gəliri olmayan şəxslər üçün öz gəlirlərindən məhrum qalmasına səbəb olmuşdur.Aşağıdakı cədvəldə 2020 və 2021-ci ilin III rübü üzrə iş yerlərinin sayı müqayisə olunmuşdur.Göründüyü kimi iş yerlərin sayı ötən illə nisbətən azlıq təşkil etmişdir.

**Cədvəl 3: Hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayının 2020-2021-ci il üzrə müqayisə statistikası**

| Hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayı | 2020 | 2021 | | 2021-ci il III rübündən 2020-ə nisbətən, % |
|---|---|---|---|---|
| | | 9 ay | III rüb | |
| Yeni iş yerlərinin sayı, cəmi | 128979 | 51111 | 20172 | -84.4 |
| yeni yaradılmış müəssisə və təşkilatlarda | 8063 | 5131 | 1510 | -81.2 |
| mövcud müəssisə və təşkilatlarda | 96426 | 44495 | 18031 | -81.3 |
| fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda | 419 | 301 | 135 | -67.7 |
| digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, abadlıq işləri və s.) | 24071 | 1184 | 496 | -97.9 |
| Yeni yaradılmış fərdi sahibkarlıq subyektlərinin sayı | 165101 | 84362 | 29214 | -82.3 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/labour/, (23.02.2022)

**Cədvəl 4: İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin sayı (ilin sonuna, min nəfərlə)**

| İqtisadi fəaliyyət növləri | 2017 | 2018 | 2019 | 2020 | 2020-də 2017-ə nisbətən,% |
|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə – cəmi | 4822.1 | 4879.3 | 4938.5 | 4876.6 | +1.1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1752.9 | 1769.3 | 1777.7 | 1771.9 | +1.08 |
| Mədənçıxarma sənayesi | 37.9 | 40.3 | 40.4 | 40.1 | +5.8 |
| Emal sənayesi | 249.1 | 254.8 | 262.6 | 258.3 | +3.6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27.5 | 27.5 | 30.5 | 28.3 | +2.9 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 30.8 | 41.1 | 30.2 | 29.9 | -2.9 |
| Tikinti | 347.9 | 354.5 | 366.2 | 357.5 | +2.7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 705.9 | 706.1 | 712.0 | 690.5 | -2.1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 201.0 | 203.2 | 205.8 | 202.7 | +0.8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 73.5 | 78.2 | 80.5 | 64.9 | -11.7 |
| İnformasiya və rabitə | 61.7 | 62.8 | 63.2 | 61.4 | -0.5 |
| Maliyyə və sığorta fəaliyyəti | 26.9 | 27.4 | 28.0 | 28.9 | +7.4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 88.8 | 90.8 | 93.3 | 90.0 | +1.3 |
| Peşə, elmi və texniki fəaliyyət | 73.5 | 74.3 | 74.5 | 72.9 | -0.8 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 58.0 | 59.5 | 70.0 | 89.8 | +54.8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 284.2 | 281.5 | 282.1 | 276.9 | -2.6 |
| Təhsil | 377.8 | 380.2 | 382.9 | 380.1 | +0.6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 189.0 | 190.0 | 191.3 | 190.2 | +0.6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 80.6 | 81.5 | 82.0 | 77.7 | -3.6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 155.1 | 156.3 | 165.3 | 164.6 | +6.1 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/labour/, (23.02.2022)

Cədvəldə verilən statistik məlumatlardan da müşahidə edildiyi kimi iqtisadiyyatın müxtəlif sahələrində məşğul əhalinin sayı 2020-ci ilə qədər artım tempi ilə davam etmişdir.Pandemiya döründə isə artıq fəaliyyət sahələri üzrə məşğul əhalinin sayı azalmışdır.Bu rəsmi məlumatlar 2020-ci ilin sonuna olan məlumatları özündə əks etdirir.Məşğul əhalinin sayının getdikcə azalması öz növbəsində işsizliyin artmasına səbəb olmuşdur.

Maliyyə, bank işi və idarəetmə kimi uzaq iş yerləri iş itkilərindən daha az təsirlənən sahələrdir. Pandemiyanın aşağı ixtisaslı və aşağı maaşlı işlərə daha çox zərər və yüksək ixtisaslı işlərə daha az zərər verdiyi müəyyən edilmişdir.

Pandemiyanın təsir etdiyi sahələrdən biri də istehsal sahəsidir.

FAO (Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) Covid-19 epidemiyası ilə mübarizə aparmaq üçün həyata keçirilən tədbirlərin tədarük zəncirində, kənd təsərrüfatı istehsalında, qida məhsullarının istehsalı və daşınmasında, tələb və təklifdə qısa müddətdə problemlər yaradacağını, bunun gələcəkdə ərzaq böhranına səbəb ola biləcəyini açıqlamışdır (Akın B., Çelen M.F., Karagöz A.,2020).

Covid-19 pandemiyası nəticəsində işsizlərin sayı sürətlə artmaqda davam edib, alıcılıq qabiliyyəti aşağı düşüb və ərzaq tələbatına mənfi təsir göstərmişdir (Schmidhuber J., Pound J., Qiao B., 2020).

**Qrafik 5: Ümumi Daxili Məhsul istehsalının 2020-2021-ci il üzrə müqayisəsi**




| | mln. manat | faizlə |
|---|---|---|
| 2019 | 81681 | 2.2 |
| 2020 | 72432.2 | 4.3 |
| 2021 | 92857.7 | 5.6 |

**Mənbə:** Azərbaycan Respublikasının Dölət Statistika Komitəsi, https://www.stat.gov.az/news/index.php?id=4788, (20.02.2022)

Şəkildə əks olunduğu üzrə pandemiya şəaritində məhsul istehsalı artmış və tələbat yüksəlmişdir.Bu isə özünü ÜDM-un çəkisində göstərmişdir.Görünür ki, 2019-cu ildə ÜDM-un həcmi daha yüksək olmuş,pandemiya başladığı ildən isə xüsusi çəki azalmışdır.2020-ci ildə 2019-ci illə müqayisədə 4.3% az, 2021-ci ildə 2020-ci illə müqayisədə 5.6% çox məhsul istehsal olunmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz, neft-qaz sektorunda isə 1,8 faiz artmışdır.ÜDM istehsalının 42,5 faizi sənaye, 10,1 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,9 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 8,4 faizini təşkil etmişdir (Azərbaycan Respublikasının Dölət Statistika Komitəsi, https://www.stat.gov.az/news/index.php?id=4788).

Pandemiya şəraitində əhalinin daha çox onlayn xidmətlərdən istifadəsi, həmçinin, kafe və restoranların karantin şəraiti ilə əlaqədar olaraq bağlı olması səbəbindən işdən sonra asudə vaxtlarını daha çox internetlə keçirmişdirlər.Bununla bağlı olaraq komputerdən və internetdən istifadə edən əhalinin sayı artmışdır.

**Cədvəl 5: Komputer istifadəçilərinin sayı**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2020-də 2016-a nisbətən, % |
|---|---|---|---|---|---|---|
| Hər 100 nəfər düşən komputer istifadəçilərinin sayı, nəfər | 70.8 | 71.7 | 72.5 | 74.1 | 77.5 | +9.5 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/information_society/ , (21.02.2022)

**Cədvəl 6: İnternet istifadəçilərinin sayı**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2020-də 2016-a nisbətən, % |
|---|---|---|---|---|---|---|
| Hər 100 nəfər düşən internet istifadəçilərinin sayı, nəfər | 78 | 79 | 79.8 | 81.1 | 84.6 | +8.5 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/information_society/ , (21.02.2022)

Cədvəldən göründüyü kimi, illər üzrə komputer və internet istifadəçilərinin sayı artmışdır.2020-ci ildə 2016-cı ilə nisbətən hər 100 nəfərə düşən komputer və internet istifadəçilərinin sayı müvafiq olaraq 9,5% və 8,5% artmışdır. Buna səbəb olaraq bütün gündəlik vərdişlərin distant sistemdə həyata keçirilməsini göstərmək olar.Asudə vaxtların çoxalması və ətraf aləmdən təcrid olunmaq əhalinin daha çox onlayn sistemə üz tutmasına, internet və texnologiyadan istifadənin təkmilləşdirilməsinə səbəb olmuşdur.

Pandemiya dövründə müxtəlif istiqamətlər üzrə dəstək tədbirləri həyata keçirilmişdir. Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstəyin təmin olunması üçün də çoxistiqamətli proqramlar müəyyən edilmişdir. Ümumilikdə Tədbirlər Planı üzrə ayrılan vəsait ilk vaxtlar 2,5 milyard

manat nəzərdə tutulsa da, dövlət başçısının tapşırığı ilə dəstək tədbirlərinin genişləndirilməsi nəticəsində bu vəsaitin məbləği 3,5 milyard manatı üstələmişdir.

Planda 4 tədbir üzrə 12 istiqamət müəyyən edilmiş, əhalinin məşğulluğu və sosial-rifaha 600 milyon vəsait ayrılmışdır.Bu istiqamətlərə əhalinin əməkhaqqılarının qorunması, məşğulluq səviyyələrinin artırılması, xüsusi karantin rejiminə görə işini itirən şəxslərdən ibarət aztəminatlılara və işsizlərə birdəfəlik ödəmələrin verilməsi, 2.3 milyon insanı əhatə edən sosial ödənişlərin davamlılığı və s. daxildir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ölkəmizdə xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar işsiz və xüsusi karantin rejimində gəlirini itirən qeyri-formal işləyən aztəminatlılara cari ilin yaşayış minimumu həcmində birdəfəlik ödəmə (190 manat) vəsaitlərinin köçürülməsini təmin etmişdir.Bu baxımdan ümumilikdə 2020-ci ildə 450 milyon manat vəsait sərf olunmuşdur (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosail Müdafiəsi Nazirliyinin rəsmi saytı, https://www.sosial.gov.az/post_416234-4164 ).

Bütün dünyanı sarsan Covid-19 pandemiyası gündəlik həyatda ənənəvi sistemdən tam fərqli bir sistemə adaptasiya olmağa və bu yöndə sosial-iqtisadi prioritetlərə yenidən baxılmasına zərurə yaratmışdır.Bu sahələrdən biri də təhsil sistemidir.Əvvəlcə təhsil müəssisələrinin bağlanması müvəqqəti olaraq qəbul edilmiş, daha sonra isə xəstəlik kütləvi karakter aldığı üçün bu istqiamətdə təkmilləşdirmə tədbiləri başladılmışdır.

Bu sahədə innovativ istiqamətlərdən biri kimi dərslərin televiziya kanalı vasitəsilə keçirilməsini misal göstərmək olar.Azərbaycan televiziyasında “Mədəniyyət” və “ARB Günəş” kanallarında dərslərin göstərilməsi ucqar kəndlərdə, internet imkanları məhdud olan şagirdlərin fasiləsiz təhsil alması üçün yaradılmış bir yenilik idi.Bununla da 1.6 milyon şagird tədrisə cəlb edilmişdir.Daha sonra bu təcrübədən digər Gürcüstan, Türkiyə, Ukrayna və digər dövlətlər də istifadə etmişdir.

Görülən bu innovativ işlərin məntiqi davamı olaraq “Virtual məktəb” layihəsi istifadəyə verilmiş, ölkənin ən iri milli onlayn platforması yaradılmışdır.Layihəyə

əsasən hər bir şagird qeydiyyatdan keçərək öz yaşına uyğun sinifə daxil olur, teledərslər vasitəsilə verilən tapşırıqları yerinə yetirir və digər tədris resurslarından faydalanmışdır.

Pandemiya dövründə Azərbaycanda tətbiq edilən "Polyup" platforması UNESKO-nun rəsmi saytında nümayiş etdirilən siyahısında yer almışdır.Ölkəmizdə icra edilən bu platforma riyazi bacarıqların və hesablama texnikasını təkmilləşdirməyə xidmət etmişdir.

Pandemiya dövründə ali və orta ixtisas tələbələrinin onlayn təhsili müxtəlif platformalarla dəstəklənmişdir.Bunlardan biri olan "MS Teams"platformasından ödənişsiz istifadə imkanı yaradılmış və texniki dəstək göstərilmişdir.Bununla yanaşı, tədrisin məsafədən təşkili zamanı ali təhsil müəssisələrinin tələbələrinə özlərinin təhsilini idarəedilməsi yönündə Stanford Universitetinin "Coursera for Campus"(UNEC, BANM), "Blackboard Colloborate" proqramı (ADA), KOICA şirkətinin sistemi (AzTU), "ZOOM" və digər onlayn platformalardan geniş istifadə olunmuşdur (Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəsmi saytı, https://edu.gov.az/az/news-and-updates/18449).

Azərbaycanda covid-19 pandemiyasının əhaliyə innovativ təsirininin xüsusiyyətlərini təhlil etmək üçün PESTE analizinə müraciət edək.PESTE analizində P- siyasi, E-iqtisadi, S-sosial, T-texnoloji, E-ekoloji amilləri özündə ehtiva edir.

**Cədvəl 7:Koronavirus pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin PESTE analizi**

| **Müsbət qiymətləndirmə (+)** | **Mənfi qiymətləndirmə (-)** |
|---|---|
| **Siyasi faktorlar** | |

| | |
|---|---|
| ➢ Azərbaycan iqtisadiyyatın 11 lazımi sektoru üzrə strategiya müəyyən edən Strateji Yol Xəritəsinin 2016-2020-ci illəri əhatə edən birinci mərhələsi başa vurulmuş və özəl sektorun inkişafı, biznes mühitin yaxşılaşdırılması və makroiqtisadi sabitliyin təmini üçün uzunmüddətli 2025-ci ilədək olan mərhələyə keçmişdir.2020-ci ildə gözlənilməz Covid-19 böhranı ilə əlaqədar tədbirlər nəzərdə tutulmuşdur.<br>➢ Plan 4,8 milyon benefisiarı əhatə etmiş, 600 min nəfərdən yuxarı şəxs pul köçürmələri şəklində yardım almışdır.Planda, eyni zamanda, iqtisadi model üzərində yenidən düşünmək, özəl sektorun rəhbərliyi altında innovasiyanı təşviq etmək və rəqəmsal iqtisadiyyatı stimullaşdırmaq üçün müddəalar da yer alır. Bu plan qısamüddətli cavab tədbiri olsa da, gələcəkdə insanların bu miqyasdakı potensial iqtisadi sarsıntılara qarşı dayanıqlılığının təmin edilməsinin yollarına dair strateji gələcəyə baxış üçün zəmin yaratmışdır. | ➢ 2020-ci ildə baş verən makroiqtisadi, hərbi və səhiyyə ilə bağlı hadisələr səbəbindən resurslar qeyri bərabər bölüşdürülmüşdür. Covid-19 pandemiyası da bu xərcləri daha da çoxaltmış və digər prioritet sahələrə xələl gətirmək hesabına səhiyyəyə mənfi təsir etmişdir.Bu istiqamətdə də xarici faktorlara qarşı makroiqtisadi dəyişkənlik qeyri-sabit iqtisadiyyata, cəmiyyətin rifah halına və iqtisadiyyatın müxtəlif sahələrinə müxtəlif aspektlərdən mənfi təsir etmişdir.<br>➢ Bu kontekstdə əsas mənfi faktor ondan ibarətdir ki, səhiyyə iə bağlı xərclər çoxaldığından maliyyə resursları qeyri-bərabər bölüşdürülmüşdür. |
| **İqtisadi faktorlar** | |
| ➢ Pandemiya dönəmində uzaqdan, onlayn şəkildə fəaliyyət müəyyən mənada bəzi xərclərin azalmasına səbəb olmuşdur.<br>➢ Nağdsız hesablaşmalardan maksimum istifadə görülən işlərin effektivliyini artırmışdır.<br>➢ Maska və gigiyenik məhsulların satışı ilə əlaqədar olaraq bu sahələrə müsbət istiqamətdə təsir etmişdir. | ➢ İqtisadiyyatın müxtəlif sahələrinə fərqli təsir etmişdir.<br>➢ İstirahət məkanlarının bağlanması, beynəlxalq uçuşlara məhdudiyyətlərin tətbiqi ən vacib xidmət sektoru olan turizmin inkişafını ləngitmişdir.<br>➢ Müxtəlif sahələr üzrə iş yerlərinin bağlanması işsizliyə və yüksək inflyasiyaya səbəb olmuşdur. |
| **Sosial faktorlar** | |

| | |
|---|---|
| ➢ İnsanlar özünüinkişafa daha çox vaxt ayırmış və müxtəlif təlimlərə qoşulmaq imkanı tapmışdırlar.<br>➢ Pandemiya insanların öz maraqlarını daha da inkişaf etdirmələrinə, uzaqdan çalışma metoduyla eyni anda bir neçə işlə məşğul olmalarına kömək etmişdir. | ➢ İnsanlar bioloji olaraq xəstəliklərə bərabər ölçüdə dayanıqlı olmadığı kimi sosial-iqtisadi səbəblərlə də sağlığını qorumaq,evdə qalmaq, karantin baxımından da bərabər deyillər.Pandemiya dövründə ilk həyata keçirilən "evdə qal" şüarı kimi tədbirlər də sabit gəlirli və iş sığortası olan orta siniflər üçün mənalı görünsə də,pandemiyanın işçilərin işini itirməsi və gündəlik işəmuzd çalışan və sabit gəliri olmayan şəxslər üçün öz gəlirlərindən məhrum olmasına səbəb olmuşdur. |
| **Texnoloji faktorlar** | |
| ➢ Pandemiya şəraitində mobil texnologiyalardan istifadə geniş vüsət almışdır.<br>➢ Asudə vaxtın artması insanların internet resurslarından istifadəsini artırmışdır.<br>➢ Nağdsız hesablaşmalar, mobil bankçılıq, e-ticarət saytlarından istifadə əhalinin texnoloji vərdişlərinin təkmilləşdirilməsi ilə nəticələnmişdir. | ➢ Texnologiyanın belə sürətli istifadəsi əhalinin böyük bir qismi üçün yeni vərdişlər olduğu üçün daha sadə və əlverişli istifadə üsullarının tətbiqi və onun digər inkişaf etmiş ölkə təcrübələrinə uyğunlaşdırılması vacib faktordur. |
| **Ekoloji faktorlar** | |
| ➢ Pandemiya şəariti nağdsız hesablaşmaların və onlayn xidmətlərin nə dərəcədə əhəmiyyətli olduğunu sübut etmişdir.<br>➢ Pandemiya döründə fəaliyyət göstərən müəssisələr məişət tullantılarının ətraf mühitə atılmasının qarısını almağa çalışmışdır. | ➢ Pandemiya müəyyən mənada turizm, xidmət və s. sahələrinə mənfi təsir etmişdir.<br>➢ Ekoloji maarifləndirmə zəif həyata keçirilmişdir. |

**Mənbə:**Cədvəl araşdırmalar əsasında müəllif tərəfindən hazırlanmışdır

Yuxarıda qeyd etdiyimiz, PESTE analizindən belə bir nəticəyə gəlmək olar ki, koronavirus müxtəlif sahələrə müxtəlif aspektlərdən təsir etmişdir.Bunlar həm müsbət, həm də mənfi istiqamətdədir.Məqsəd müsbət amilləri prioritet tutaraq mənfi amilləri aradan qaldırmaq və ya ən azından minimimuma endirməkdən ibarətdir.

## 2.2. Covid-19 pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin qiymətləndirilməsi

Koronavirus pandemiyasının əhaliyə innovativ təsiri istiqamətdində sorğu həyata keçirilmişdir.Sorğu onlayn şəkildə aparılmış, sorğuda 204 respondent iştirak etmişdir.

Sorğu əhatəsində respondentlərin cins, yaş, təhsil səviyyəsi və çalışdığı sahə müəyyən edilmiş, daha sonra pandemiya şəraitində əhalinin innovativ fəaliyyət istiqamətlərinin təhlili və sosial-iqtisadi cəhətdən qiymətləndirilməsi baxımından suallar ünvanlanmışdır.

Sorğu nəticəsində əldə olunan məlumatlar vasitəsilə SWOT analizi həyata keçirilmişdir.

Sorğu üzrə qrafiklər:

**Qrafik 6: Sorğuda iştirak edən respondentlərin demoqrafik bölgüsü**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Sorğuda iştirak edən respondentlərin 29.9 %-i kişi, 70.1%-i qadınlar təşkil etmişdir.

Sorğuda iştirak edən şəxslərin yaş aralığı aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 8 : Sorğuda iştirak edən respondentlərin yaş aralığı**

| **Yaş aralıqları** | **18-25** | **26-35** | **36-45** | **46-60** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Say | 136 | 45 | 15 | 8 | 204 |
| Faiz | 66.2 | 22.1 | 7.4 | 3.9 | 100% |

**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Sorğuda iştirak edənlərin yaşlarına nəzər saldıqda görürük ki, ən aktiv iştirak edən 66.2% ilə 18-25 yaş aralığıdır, daha sonra 22.1% ilə 26-35 yaş arası, 7.4% ilə 36-45 yaş, 3.9% ilə isə 46-60 yaş aralığı təşkil etmişdir.

**Qrafik 7 :Sorğuda iştirak edən respondentlərin təhsil səviyyəsi**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Sorğuda iştirak edən respondetlərin 47.5%-i bakalavr, 34.8%-i magistr, 6.9%-i orta ixtisas, 5.9% -i fəlsəfə elmləri doktoru, 3.4%- i isə orta təhsilə sahibdirlər.

**Qrafik 8 : Sorğuda iştirak edən respondentlərin çalışdığı sahə**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qrafik 8-də iştirakçıların çalışdıqları sahə əks olunmuşdur.Göründüyü kimi ən çox 21.1%-lə dövlət qulluqçuları, 21% özəl, 18.1%-lə tələbələr, 13.7% işsizlər, 12.7% təhsil sahəsində çalışan şəxslər, 10.8% fərdi fəaliyyət sahəsi, 1.5% mövsümi işçilər, 0,5% isə digər şəxslər təşkil etmişdir.

İndi isə respondetlərin koronavirusun əhaliyə təsiri ilə bağlı suallara verilən cavabları təhlil edək.

**Qrafik 9 : Pandemiyanın cəmiyyətin aşağıda göstərilən sahələrinə innovativ təsirini qiymətləndirin:**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Sorğuda iştirak edən respondetlərdən pandemiyanın ictimai-iaşə obyektləri, ticarət mərkəzləri, təhsil ocaqları və turizm məkanlarına innovativ təsirini qiymətləndirilməsi tələb olunur.İştirakçıların böyük qismi 107 nəfər ictimai-işaə obyektlərinə, 110 nəfəri ticarət mərkəzləri, 91-i təhsil ocaqlarına, 90 nəfər də turizm məkanlarına pis təsir etdiyini cavablandırmışdırlar.

**Qrafik 10: Koronavirus pandemiyası maliyyə vəziyyətinizə necə təsir göstərdi?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Sorğuda iştirak edən repondetlərdən pandemiyanın maliyyə vəziyyətlərinə necə təsir etdiyi soruşulmuşdur.Onların 51%-i, yəni 104 nəfər “yaxşı”, 24%-i 49 nəfər “çox yaxşı”, 14.7%-i 30 nəfər “pis”, 4.4%-i 9 nəfər “çox pis”, 5.9%-i 12 nəfər “fikrim yoxdur” cavabını qeyd etmişdir.Göründüyü kimi pandemiya dövründə əhalinin maliyyə vəziyyəti daha çox “yaxşı” cavabını almışdır.Bu da onu göstərir ki,

əhalinin karantin məhdudiyyətləri səbəbilə daha çox evdə qalması onun bəzi xərclərini azaltmış, bu da öz növbəsində maliyyə vəziyyətinə müsbət təsir etmişdir.

**Qrafik 11: Pandemiya dövründə komputerdən istifadə vərdişlərinizi qiymətləndirin:**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçılardan pandemiya dövründə komputerdən istifadə vərdişləri soruşulmuşdur.Bunun cavabında onların 58 nəfəri,yəni 28.4% -i “yaxşı”, 47 nəfər(23%) “qənaətbəxş”,39 nəfər (19.1%) “əla”, 35 nəfər (17.2%) “pis”, 25 nəfər, yəni 12.3% “çox pis” cavablarını qeyd etmişdirlər.

**Cədvəl 9: Covid-19 pandemiyası dövründə hansı onlayn platformalardan istifadə etdiniz?**

| | Zoom | Microsoft Teams | Google Meet | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| Faiz | 68.1 | 47.1 | 17.6 | 15.7 | 100% |
| Nəfər | 139 | 96 | 36 | 32 | 204 |

**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Koronavirus pandemiyası ərzində müxtəlif platformalardan istifadə edilmişdir. Cədvəldən göründüyü kimi, daha çox üstünlük 68.1%-lə “Zoom” platformasına verilmişdir. 47.1% “Microsft Teams”, 17.6% “Google Meet”, 15.7% “Digər” platformalar təşkil etmişdir.Bu qeyd etdiyimiz platformlar pandemiyadan əvvəl bir o qədər də aktiv istifadə edilməyən platformlardır.Pandemiya dövründə təhsilin ənənəvi qaydadan distant üsula keçməsi ilə daha çox təhsil işçiləri, tələbələr, şagirdlər bu platformalardan istifadə etməyə başladılar.Bu statistika özünü sorğu nəticələrində də doğrultmuşdur.

**Qrafik 12: Pandemiya dövrıündə nəqliyyat məhdudiyyətləri xərclərinizə necə təsir etdi?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Bildiyimiz kimi, karantin dövründə nəqliyyatda məhdudiyyətlər baş vermişdir.İctimai nəqliyyat ( metro, avtobus) bir müddət fəaliyyət göstərməmişdir.Anketi cavablayan respondetlərin suala 33%-i "pis" cavabını vermişdir.Bunun səbəbi də müəyyən qədər məlumdur.Çünki bəzi iş sferaları onlayn iş rejiminə keçsə də, əksər hissəsi fəaliyyətini ənənəvi olaraq davam etdirmişdir.İctimai nəqliyyatın işləmədiyini nəzərə alsaq, işə getmək üçün taksi fəaliyyətindən istifadə, xərclərin çoxalmasına səbəb olmuşdur.Digər cavabları qeyd edən iştirakçıların həmin cavabları, məslən: 31% "qənaətbəxş", 22% "kafi", 8% "yaxşı", 6% "əla" ,seçmələri onların işə və yaxud digər məkanlara şəxsi avtomobil vasitəsilə getməsi, ya da ümumilikdə onlayn formada işlədikləri üçün nəqliyyatdan istifadə etmədikləri üçün ola bilər.

Bildiyimiz kimi pandemiya dövründə əhalinin xərcləri müxtəlif istiqamətdən artmışdır.Buna misal olaraq, kommunal xərclərin artması, ərzaq tələbatının çoxalması, gigiyena məhsulların daha çox istifadə olunması və s. aiddir. Aşağıdakı şəkildə respondentlərin bu suala verdikləri cavab statistikası əks olunmuşdur.

**Qrafik 13: Covid-19 pandemiyası sosial-məişət şəraitinizdə hansı dəyişikiliklərə səbəb oldu?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Şəkildən də göründüyü kimi əhali daha çox-78.9% gigiyena məhsullarının alınmasına vəsait xərcləmişdir.Bundan başqa 46.1%- ərzaq məhsullarına tələbat, 41.2%-kommunal xərclərin çoxalması müəyyənləşmişdir.

**Qrafik 14 : Pandemiya dövründə hansı pis vərdişlərdən uzaqlaşdınız?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafik 14-də verilən suala iştirakçıların 58,8%-i fast food qidalardan istifadədən uzaqlaşmaq cavabını vermişdir.Çünki karantin müddətində əhalinin daha çox evdə vaxt keçirməsi onların zərərli qidalardan uzaqlaşmasına səbəb olmuşdur.Bundan başqa 24% iştirakçı texnoloji vasitələrə bağlılıq, 8.3% spirtli işkidən istifadə, 5.9% isə tütün və tütün vasitələrdən uzaqlaşmaq cavabını qeyd etmişdir.Bu nəticələr pandmeiyanın insan həyatına olan müsbət təsirini göstərir.

**Qrafik 15: Uzun müddət texnologiyadan istifadə etmək sizdə hansı fiziki fəaliyyətə mənfi təsir etdi?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Bilirik ki, pandemiya daha çox texnoloji vasitələrdən istifadəyə şərait yaratmışdır.Bu baxımdan da insanların səhhətində bir sıra problemlər yaranmışdır.Texnologiyadan çox istifadə əhalinin daha çox şüaya məruz qalmasına səbəb olmuşdur.İştirakçıların 71.1%-i texnologiyadan istifadənin onlarda göz yorğunluğuna səbəb olduğunu qeyd etmişdir.Yuxu pozğunluğu, çəki artıqlığı, əzələ ağrıları, ürək xəstəliyi müvafiq olaraq, 51.5%, 30.4%, 29.4%, 9.3%-ə uyğun olaraq cavablandırılmışdır.

**Qrafik 16: Karantinin sizdə doğurduğu psixoloji problemləri seçin**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Respondentlərin 36% -i stress, 27%-i yorğunluq, 25%-i gələcək qayğısı, 12%-i isə inamsızlığın olduğunu qeyd etmişdirlər.

**Qrafik 17 : Fəaliyyət göstərdiyiniz hansı sektorda pandemiya dövründə onlayn sistemdən istifadə etdiniz?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçılardan pandemiya dövründə hansı sahədə onlayn sistemdən istifadə etdiklərini soruşduqda, 73.5% -i təhsil, 11,3%- i səhiyyə, 20.1%-i bank, 23.5%-xidmət, 4.9%-i isə turizm sahəsində çalışdıqlarını bildirmişdirlər.Araşdırmadan aydın olur ki, daha çox təhsil və xidmət sektorunda onlayn sistemdən istifadə edilmişdir.

**Cədvəl 10: Covid-19 pandemiyası sizin hansı fəaliyyətinizə innovativ təsir etdi?**

| **Covid-19 pandemiyası sizin hansı fəaliyyətinizə innovativ təsir etdi?** | **Say** | **Faiz** |
|---|---|---|
| İnternetdən istifadənin təkmilləşdirilməsi | 82 | 40.20% |
| Vaxtın düzgün istifadə edilməsi | 51 | 25% |
| Yeni platformalarla tanışlıq | 95 | 46.60% |
| Maliyyə itkisinin azalması | 55 | 27% |

**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Sorğu iştirakçılarından pandemiyanın hansı fəaliyyətlərinə innovativ təsir etdiyini qeyd etmələri istənilmiş, Yeni platformalarla tanışlıq və İnternetdən istifadənin azaldılması ön planda olmuşdur.

**Cədvəl 11 : Pandemiya şəraiti sizdə hansı yeni vərdişləri aşıladı?**

| **Pandemiya şəraiti sizdə hansı yeni vərdişləri aşıladı:** | **Say** | **Faiz** |
|---|---|---|
| onlayn ödənişlərə üstünlük verilməsi | 111 | 54.40% |
| uzaqdan iş rejimi | 69 | 33.80% |

| | | |
|---|---|---|
| e-ticarətin daha çox istifadəsi | 75 | 36.80% |
| özünüinkişafa daha çox vaxt ayırmaq | 61 | 29.90% |
| istənilən yerdən və zamanda onlayn dərslərə qoşulmaq imkanı | 89 | 43.60% |
| digər | 3 | 1.50% |

**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Pandemiya şəraitinin əhalidə hansı yeni vərdişləri aşıladığını müəyyənləşdirmək üçün Cədvəl 11-ə müraciət edək.Təhlil nəticəsində 111 nəfər (54.4%) onlayn ödənişlərə üstünlük verilməsi, 89 nəfər (43.6%) istənilən yerdən və zamanda onlayn dərslərə qoşulmaq imkanı olmasını, 75 nəfər (36.8%) e-ticarətin daha çox istifadə edilməsini,69 nəfər (33.8%) uzaqdan iş rejimini qeyd etmişdir.

**Qrafik 18: Pandemiya dövründə işinizi itirmək qorxusu yaşadınızmı?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçılardan işlərini itirmək qorxusunun yaşayıb-yaşamadıqlarını soruşduqda, 39.7%-i xeyr, 19.6%-i bəli, 14.2%-i qismən, 26.5%-i isə fikrim yoxdur cavabını qeyd etmişdirlər.

**Cədvəl 12: Ənənəvi və onlayn qaydada işləmənizi qiymətləndirin (seçin)**

| **Ənənəvi və onlayn qaydada işləmənizi qiymətləndirin (seçin)** | **Say** | **Faiz** |
|---|---|---|
| onlayn iş vaxtımı daha yaxşı istifadə etməyə kömək etdi | 77 | 37.70% |
| evdən çalışanda işlə bağlı vəzifələrimə daha yaxşı adaptasiya oluram | 38 | 18.60% |
| uzaqdan işləyəndə nə zaman işimə ara verəcəyimi və işləyəcəyimi bilirəm, beləliklə istirahət etmək fürsətim olur | 76 | 37.30% |

| | | |
|---|---|---|
| distant işləmək ailəmə, dostlarıma və ya işdən kənar fəaliyyətlərə ayırmaq istədiyim vaxtı azaldır | 42 | 20.60% |
| evdən işləyən zaman normal çalışma saatlarından kənarda da daha çox işlə bağlı problemləri düşünürəm | 52 | 25.50% |

**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Araşdırma nəticəsində daha çox göstərici 37.7% iştirakçı "onlayn iş vaxtımı daha yaxşı istifadə etməyə kömək etdi" bəndini seçmişdir.Onlayn rejim əhalinin vaxtına qənaət etməyə kömək etmişdir.Bundan başqa digər göstəricilər də göstərir ki, onlayn sistemdə çalışmaq əhalinin ailə və dostlarına daha çox vaxt ayırmağa, işlərini daha planlı həyata keçirməyə şəarit yaratmışdır.Lakin onlayn işləmək günün bütün saatlarında daha çox işi düşünməyə vadar edir.

**Qrafik 19 : Karantin dövründə onlayn sistemdə işləmək əmək haqqınıza və iş saatınıza təsir etdimi?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçılara karantin dövründə onlayn sistemdə işləmək əmək haqqınıza və iş saatınıza təsir edib-etmədiyi soruşulduqda,onların 40%-i xeyr, 20%-i bəli, 22%-i heçbir fikrim yoxdur, 18%-i qismən cavabını qeyd etmişdir.Araşdırmadan məlum olur ki, işçilərin əksəriyyətinin iş saatı və əmək haqqılarına təsir etməmişdir.

**Qrafik 20 : Pandemiya dövründə çalışma şəraiti ilə əlaqəli necə bir çalışma formasına sahib olmaq istəyərdiniz?**




**Mənbə:** Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçıların pandemiya dövründə necə bir çalışma formasına sahib olmaq istədikləri soruşulduqda, daha çox iştirakçı istər ofis, istərsə də evdən part time çalışmağa üstünlük vermişdir.Bu saylar müvafiq olaraq 141 və 132 nəfər, full time isə müvafiq olaraq 70 və 84 nəfər təşkil etmişdir.

**Qrafik 21: Pandemiya dövründə iş yerinizin sanitariya səviyyəsini müəyyənləşdirin:**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Pandemiya dövründə iş yerinizin sanitariya səviyyəsini müəyyənləşdirilməsi iştirakçılardan soruşulduqda 41% iştirakçı qane edir cavabını vermişdir.İştirakçıların 7%-i isə qətiyyən qane etmir cavabını vermişdir.

**Qrafik 22 : Siz necə düşünürsünüz, rəhbəriniz sizi pandemiyanın çox yayıldığı yerə ezamiyyətə göndərsə, qərarınız necə olardı?**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Respondentlərə-"Siz necə düşünürsünüz, rəhbəriniz sizi pandemiyanın çox yayıldığı yerə ezamiyyətə göndərsə, qərarınız necə olardı?" sualı ünvanlandıqda, 40% iştirakçı narazı cavabını, 12% isə razı olduğunu bildirmişdir.

**Qrafik 23 : Ev şəraitinin onlayn işləmək üçün uyğunluğunu qiymətləndirin:**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçılara ev şəraitinin onlayn işləmək üçün uyğunluğu soruşulduqda, 47.1%-i qənaətbəxş, 19.6%- i yaxşı, 17.2%-i pis, 9.8%-i əla, 6.4%- i isə çox pis variantlarını qeyd etmişdirlər.Bunun həm müsbət, həm mənfi cəhətləri vardır.Məsələn: istənilən vaxt işləyərək qidalanmaq, daha rahat geyimdə çalışmaq baxımından ev şəraiti əlverişlidir.Lakin səs-küy, ofisdə olan şəraitin hər evdə olmaması isə evdən çalışmağı çətinləşdirən səbələrdən biridir.

Aşağıdakı Qrafik 24-də iştirakçılardan onlayn işdən sonra hansı fəaliyyətlə məşğul olduqları soruşulmuş, onların 41%-i ailə ilə vaxt keçirmək cavabını qeyd etmişdir.Digər müxtəlif faizlərlə fəqrli məşğuliyyətlər qeyd edilmişdir.Əvvəlki

şəkillərdə qeyd etdiyimiz araşdırmada da əhali onlayn çalışmağı sevdikləri ilə vaxt keçirmək baxımından faydalı hesab etmişdir.

**Qrafik 24: Onlayn işdən sonra yorğunluğunuzu aradan qaldırmaq üçün hansı fəaliyyətlə məşğul olursunuz?**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

**Qrafik 25: Sizcə onlayn yoxsa ənənəvi sistem daha effektivdir?**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qrafikdən də göründüyü kimi, iştirkçıların böyük əksəriyyəti, yəni 55% -i ənənəvi sistemi,  40%- i onlayn, qalan 5%-i isə həm ənənəvi, həm də onalyn sistemi daah effektiv hesab etmişdir.

**Qrafik 26 : Pandemiyadan əvvəl nağdsız hesablaşmalardan istifadə səviyyənizi qiymətləndirin**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Pandemiyadan əvvəlki dövrdə əhalinin nağdsız hesablaşmalardan istifadə səviyyəsi soruşulduqda, onların 40.7%- i qənaətbəxş, 22.1%-i yaxşı, 15.2%-i pis, 13.2%-i əla, 8.8%-i çox pis variantlarını qeyd etmişdir.Bildiyimiz kimi pandemiya nağdsız hesablaşmlarla əməliyyatların həyata keçirilməsinə müsbət təsir göstərmişdir.Pandemiya dövründə onlayn ödənişlər daha effektiv hesab olunmuşdur.Bu məsələnin araşdırmasını növbəti sualımızda təhlil edəcəyik.

**Qrafik 27 :Pandemiya dövründə onlayn ödənişlərdən istifadənizi qiymətləndirin**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Əvvəlki qrafikdə də qeyd etdiyimiz kimi pandemiya əhalinin fəaliyyətinə innovbativ təsir edərək, onlayn ödənişlərdən istifadəni təkmilləşdirmişdir.Bu iştirakçıların cavablarında da öz əksini tapmışdır.Belə ki, onların 48%-i yaxşı, 28.9%-i isə çox yaxşı cavablarının qeyd etmişdir.

**Cədvəl 13: Pandemiya dövründə e-ticarət saytlarından istifadənizi 5 ballıq şkala üzərindən qiymətləndirin:**

| **Pandemiya dövründə e-ticarət saytlarından istifadə** | **nəfər** | **faiz** |
|---|---|---|
| əla | 30 | 14.70% |
| yaxşı | 65 | 31.90% |
| qənaətbəxş | 65 | 31.90% |
| pis | 26 | 12.70% |
| çox pis | 18 | 8.80% |

**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Ölkələrin karantin qaydaları səbəbilə onlayn ticarət inkişaf etmişdir.Təmasdan qaçınmaq üçün insanlar fiziki olaraq mağazalardan qaçmış və e-ticarətə üz tutmuşdurlar.Bu anketin nəticəsində də özünü göstərir.Belə ki, iştirakçıların 31.9%-i pandemiya dövründə e-ticarətdən istifadəsini yaxşı, 31.9%-i qənaətbvəxş hesab etmişdir.

**Qrafik 28 : Karantin dövründə özünüinkişaf üçün hər hansı onlayn təlimlərə qoşulmusunuz?**




**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçıların özünüinkişaf üçün hər hansı onlayn təlimlərə qoşulduğu soruşulduqda, onların 52%- bəli, 48%- i isə xeyr cavabını vermişdir.

**Cədvəl 14: Yenidən normal həyata adaptasiya olduğunuzu düşünürsünüzmü?**

| **Yenidən normal həyata adaptasiya olduğunuzu düşünürsünüzmü?** | **nəfər** | **say** |
|---|---|---|
| bəli | 81 | 39.70% |

| | | |
|---|---|---|
| xeyr | 40 | 19.60% |
| qismən | 83 | 40.70% |

**Mənbə**:Sorğunun nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

İştirakçıların karantindən sonra yenidən normal həyata adaptasiya olmaqları soruşulduqda, onların 39.7%- i bəli, 19.6%-i xeyr, 40.7%-i isə qismən cavabını vermişdir.

Həyata keçirdiyimiz bu anket sorğusunda iştirakçılar tərəfindən pandemiyanın onların innovativ fəaliyyətinə təsiri ilə bağlı həm müsbət, həm də mənfi cavablar verilmiş və tərəfimizdən qiymətləndirilmə aparılmışdır.

Sorğudan əldə olunan nəticələrin Cədvəl 15-də SWOT analizinə baxaq:

**Cədvəl 15: Sorğudan əldə olunan nəticələrin SWOT analizi**

| **Güclü cəhətlər** | **Zəif cəhətlər** |
|---|---|
| • vaxta qəanət olunmuşdur<br>• komputerdən istifadə vərdişləri artmışdır<br>• yeni platformalarla tanışlıq olmuşdur<br>• pis vərdişlərdən uzaqlaşılmışdır<br>• nağdsız ödənişlərə daha çox üstünlük verərək, təmasdan qaçınılmışdır | • bir çox sahələrin, o cümlədən, turizm, ictimai iaşə obyektlərinin fəaliyyəti dayandırılmışdır<br>• işsizliyin artmasına səbəb olmuşdur<br>• kommunal xərclərin artması baş vermişdir<br>• ev şəaritində hərəkətsizlik baş vermişdir<br>• uzun müddət texnologiyadan istifadə etmək bəzi fiziki və psixoloji xəstəliklərə səbəb olmuşdur |
| **İmkanlar** | **Təhlükələr** |
| • xərclərin qismən azalması səbəbindən,büdcəyə qənaət etmə imkanı yaranmışdır<br>• özünüinkişaf üçün zamanın yaranması<br>• e-ticarət saytlarının inkişafı üçün fürsət yaranmışdır<br>• məhsulların saytlarda çoxçeşidli olması nəzərə çarpmışdır | • ərzağa olan tələbatın çoxalması, bu da öz növbəsində gələcəkdə ərzaq qıtlığının yarana bilmə ehtimalı olmuşdur<br>• karantin səbəbilə evdə daha çox vaxt keçirildiyi üçün hərəkətsiz yaşamın sağlamlığa ziyanını artmışdır<br>• onlayn saytlardan alınan məhsulların etibarlılığını müəyyənləşdirməkdə çətinlik olmuşdur |

**Mənbə:** Cədvəl sorğudan əldə olunan nəticələrə əsasən müəllifin özü tərəfindən hazırlanmışdır

# III FƏSIL. COVID 19 PANDEMIYASININ ƏHALININ INNOVATIV FƏALIYYƏTINƏ MÜSBƏT TƏSIRLƏRININ TƏKMILLƏŞDIRILMƏSI VƏ MÖVCUD PROBLEMLƏRIN ARADAN QALDIRILMASI

## 3.1 Covid-19 pandemiyası dövründə xidmət və keyfiyyətin tənzimlənməsi

Pandemiya dövründə əhalinin fövqəladə vəziyyətə adaptasiya olunması, məşğulluğun təmin edilməsi, təhsil və digər sahələrin işinin idarə edilməsi, sahibkarlığın inkişafına dəstək və eyni zamanda pandemiyadan sonrakı dövrdə makroiqtisadi sabitliyin təmini üçün Respublika başçısının 2020-ci il 19 mart tarixli fərmanı ilə "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı təsdiq edilmişdir.

Bu Tədbirlər Planı aşağıdakı üç istiqamət üzrə müvafiq tədbirləri nəzərdə tutmuşdur:

1.İqtisadiyyatın təkmilləşdirilməsi və sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi

Bu istiqamət üzrə aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur:

- məşğulluğun təmini və sosial stabilliyin saxlanılması;
- iqtisadi şəffaflığın çoxaldılması;
- iqtisadiyyatın təkmilləşdirilməsinin müdafiə olunması üçün vergi güzəştlərinin verilməsi;
- sahibkarlara dövlət dəstəyi üçün kreditlərin verilməsi;
- pandemiya səbəbilə inkişafı ləngimiş sahələrə əlavə dəstəyin həyata keçirilməsi.

Bu istiqamət üzrə 2021-ci il aprel ayının 1-nə maliyyə dəstəyi edilmiş muzdlu işçilərin sayı 185256 nəfər, ödənilmiş vəsaitin məbləği isə 41753 manat təşkil etmişdir.

2.Sosial vəziyyətin yaxşılaşdırılması və məşğulluğa dəstək

Bu istiqamət üzrə aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur:

- dövlət qulluqçılarının məşğulluğuna dəstək;
- özəl sektor işçilərinin işsizlik riskindən qorunması;
- işsiz əhalinin sosial müdafiəsi;
- həssas əhalinin pandemiya dövründə sosial rifahının müdafiəsi.

İşsiz və ya işdən ayrılan əhalinin sosial müdafiəsi və məşğulluğuna dəstək istiqamətində 2020-ci il aprel-may ayında aşağıdakı işlər nəzərdə tutulmuşdur:

- işsiz əhalinin müvəqqəti iş yeri ilə təmini üçün 50 min nəfərlik iş yerinin yaradılması;
- işsiz statusunda Dövlət Məşğulluq Xidməti orqanlarında qeydə alınan şəxlərə yaşayış minimum həcmində (190manat) birdəfəlik ödəmələrin verilməsi.

Həssas əhali qrupuna aid olan şəxlərin 2020-ci ilin aprel-dekabr ayları üzrə sosial rifahının müdafiəsinin gücləndirilməsi istiqamətində:

- əhaliyə sosial vəsaitlər-pensiya və müavinətlərin davamlılığının təmini məqsədilə Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il üzrə yaranmış 200 mln manat ehtiyat vəsaitinin istifadə edilməsi;
- müddəti bitmiş ünvanlı dövlət sosial yardımı olan ailələrə karantin dövründə yardımların karantin bitənədək davam etdirilməsi;
- 65 yaş yuxarı yalnız olan şəxslərə evlərində sosial xidmətin göstərilməsi;
- sosial baxımdan həssas əhali qrupuna aid olan ailələrin üzvü olan tələbələrin təhsil haqlarının dövlət tərəfindən qarşılanması.

3.Maliyyə stabilliyi və makroiqtisadi sabitlik

Bu istiqamət üzrə tədbirlər:

- mövcud şəraiti nəzərə alaraq yeni makroiqtisadi siyasətin hazırlanması;
- karantin dövründə pandemiyadan zərər çəkmiş sahələr üzrə fəaliyyət göstərən sahibkarlara maksimum xidmətin göstərilməsi üçün kredit təşkilatlarına göstərişlərin verilməsi;
- valyuta sisteminin tənzimlənməsi və kapital axınının izlənməsi istiqamətində tədbirlərin görülməsi.

Bildiyimiz kimi, pandemiya sahibkarlığa təsirsiz ötüşməmişdir.Bir çox mənfi təsirlərə malik pandemiya, həm də bəzi nüansları da meydana çıxarmışdır.Bütün bu hadisələr gözlənilməz, fövqəladə vəziyyətlərə qarşı hazırlıqlı olmağı, iqtisadi mühitin stabilliyinin müdafiə olunması, elektron biznesin inkişaf etdirilməsinin labüdlüyünü nəzərə çatdırmışdır.Bəzi iqtisadiyyatlarda olduğu kimi, Azərbaycanda da mikro, kiçik və orta sahibkarlıq subyektləri bizneslərin böyük hissəsini təşkil edir.Bu baxımdan da pandemiya dövründə sahibkarlığa dəstək əsas faktorlardan biridir.

Azərbaycan Respublikasında koronavirusa qarşı müdafiə tədbirlərinin həyata keçirilməsi və əhalinin sağlamlığının qorunması çərçivəsində ölkə başçısının 2020-ci il 19 mart tarixli fərmanına əsasən Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır.Fondun məqsədi  bu virusla mübarizə istiqamətində görülən tədbirlər vasitəsilə maliyyə dəstəyi rolunu oyamaqdan ibarətdir.Fonda ümumilikdə milli valyutada 113 816 519 manat daxil edilmişdir.Həmçinin Prezidentin Ehtiyat Fondu tərəfindən 20 000 000 manat vəsait köçürülmüşdür.Bu vəsaitlər əhalinin virusla mübarizədə yaşam səviyyəsinin, rifah səviyyəsinin artırılması, sosial layihələrin həyata keçirilməsi üçün və s. istifadə edilmişdir (http://covid19fund.gov.az/az/, 10.04.2022).

Pandemiya dövründə əhalinin sağlamlığının müdafiəsi və karantin qaydalarına əməl olunmaqla bərabər, texnolgiyadan istifadənin təkmilləşdirilməsi və xidmətlərin uzaqdan aparılması da labüd olmuşdur.Bu xidmətlərdən biri də notariat xidmətidir.Hələ pandemiyadan əvvəl də elektron notariat xidmətləri inkişaf etməyə başlasa da, pandemiya dövründə bu xidmət daha da təkmilləşdirilmişdir.Bu əhalinin innovativ fəaliyyətinə təsirin əsas istiqamətlərindən biridir.Belə ki səyyar notariat xidmətləri yaradılıb, mobil notariatla bağlı elektron imkanlar təkmilləşdirilmişdir.Yəni vətəndaş notariusa gedə bilmirsə, ona yerində xidmət göstərilir.Vətəndaş ən vacib anlarda sosial təcridlə bağlı evdən çıxa bilmirsə, bu cür vacib anlarda belə xidmətdən istifadə edir.

Notariat sahəsində texnologiyaların innovativ inkişafı baxımından “Elektron notariat” informasiya sistemi ən lazımlı sistemə çevrilmişdir.Vətəndaşlar tərəfindən

gün ərzində 10 mindən çox müraciət qəbul olunur və beləliklə, sənədlərin saxtalaşdırılmasının qarşısı alınır (https://justice.gov.az/news/1791, 05.04.2022).

Cəmiyyətin böyük hissəsinin onlayn təhsil və iş sisteminə keçdiyi, məlumatların daha sürətlə ötürülməsi və yüklənməsinə ehtiyac yarandığı bir dövrdə texnologiyadan maksimum istifadə, mobil internet xidmətinin labüdlüyü qaçınılmazdır.Qeyd etdiyimiz bu halları nəzərə alan Azercell şirkəti paytaxt və rayonlarda şəbəkənin daha da sürətli işləməsi üçün bütün tədbirləri həyata keçirmişdir.Pandemiya şərtlərini nəzərə alaraq Azercell-in Əlaqə mərkəzi və Xidmət Mərkəzləri tezləşdirilmiş rejimdə çalışmışdır.Şirkətin əhali üçün əsas xidmətlərindən biri evdən çıxması qadağan olunan həssas sosial təbəqə olan 65 yaşdan yuxarı şəxslərin Mobil Müştəri Xidmətinin təqdim edilməsi idi.

Karantin rejiminin müəyyən olunduğu ilk vaxtlardan şirkət həm öz abunəçiləri, həm də digər operatorların abunəçisi olan 600-dan çox tibb işçilərinin balansına 50 AZN vəsait yükləmişdir.

Həmçinin Azercell abunəçisi olan və Təhsil Nazirliyi tərəfindən yaradılan "Virtual Məktəb" portalında qeydiyyatdan keçmiş təhsil işçilərinin balansına pandemiyanın ilk 2 ayı ərzində 5G məbləğ yükləmişdir.

Azərbaycan Texniki Universitetinin büdcəsi hesabına tələbələrinə Azercell-dən endirimli internet paketləri verilmişdir.Həmçinin şirkət özü şəbəkə abunəçisi olmayan tələbələrə bu internet paketlərindən yararlanmaq üçün pulsuz nömrələr paylamışdır.

Bütün bu qeyd etdiyimiz tədbirlər keyfiyyətli bağlantı qurmaq, istənilən məlumatların daha tez bir zamanda əldə edilməsi, gündəlik iş və ya təhsil həyatından geri qalmamaq çərçivəsində əhalinin ehtiyaclarını qarşılamış, onların fəaliyyətinə innovativ təsir etmişdir.

Pandemiya dövründə elektronlaşmaya ən böyük ehtiyac duyulan sahələrdən biri bank sektoru olmuşdur.Banklarda növbələrin, əhalinin sıxlığının qarşısının alınması üçün mobil bankçılıq sisteminin inkişafı labüd olmuşdur.Belə ki, belə yeniliklər həm əhalinin sağlamlığının müdafiəsi-sosial məsafənin qorunması baxımından, həm də onların fəaliyyətlərinin innovativ idarə edilməsi-vaxta, zamana

qənaət baxımından daha məqsədəuyğundur.Banklarda uzun növbələrin nisbətən qarşısının alınması, banka gəlməyə ehtiyac olmadan qısa zamanda və müştərinin bilavasitə özü tərəfindən əməliyyatların icra olunması pandemiya dövründə karantin qaydalarına əməl edilməsinə və proseslərin daha tez, əhali üçün daha effektiv olmasına kömək etmişdir. Bu çərçivədə müxtəlif banklar tərəfindən innovativ layihələr həyata keçirilmişdir.

Azərbaycan Beynəlxalq Bankı tərəfindən pandemiya dövründə mobil bankçılığın inkişafı üçün müxtəlif layihələr həyata keçirilmişdir.Hüquqi və fiziki şəxs müştərilərin bankın xidməti ofislərinə gəlməsinin azaldılması üçün məsafədən xidmət, hesab açmaq imkanları yaradılmışdır.Nağdsız ödənişlərin təşviqi məqsədilə müxtəlif layihələr həyata keçirilmiş və müştərilərin istifadəsinə verilmişdir.ABB miles kartı-nağdsız ödənişlər zamanı millər qazandıran kart, həm ödəniş kartı olub, həm də tələbə məlumatlarını əks etdirən Tələbə kartı istifadəyə verilmişdir.Bankın mobil tətbiqi yenilənmiş və müxtəlif yeni funksiyalar əlavə edilmişdir.Kəşbək əldə etmək fürsətləri yaradılmışdır. Bank tərəfindən kiçik və orta sahibkarlarla münasibətlər də genişlənib, kiçik və orta biznes layihələrinin maliyyələşdirilməsi genişləndirilmişdir (https://www.abb-bank.az/az/xeberler/azerbaycan-beynelxalq-bankinin-layiheleri-mukafatlar-qazandi ).

Pandemiya dövründə təhsilin idarəedilməsinə nəzər yetirdikdə, görünür ki, pandemiya bu sahəyə həm müsbət həm də mənfi təsir etmişdir.Mənfi təsir kimi şagird və tələbələrin tədrisdən uzaqlaşmağı, onların təhsilinin geriləməsini qeyd edə bilərik.Həmçinin xüsusi karantin rejimi ilə əlaqədar təhsil müəssisələrinin bağlanması ilə tədrisin onlayn formada keçirilməsi internetə əlçatanlığı olmayan, texnologiya ilə təmin edilməmiş əhali üçün mənfi situasiya idi.Müsbət tərəfdən nəzər yetirdikdə isə distant təhsilin köməyilə əvvəllər bu texnologiyalardan, həmçinin proqramlardan istifadə etməyən əhali üçün innovativ tədbir olmuşdur.

Azərbaycanda pandemiya dövründə təhsilin fasiləsizliyini təmin etmək üçün müxtəlif idarəetmə tədbirləri həyata keçirilmişdir.Bu tədbirlər 2 istiqamət üzrə aparılmışdır:

**Qrafik 29: Azərbaycanda pandemiya dövründə tədrisin təşkili mərhələləri**




**Mənbə:**Araşdırmalar əsaında müəllif tərəfindən hazırlanmışdır

Birinci mərhələ təhsilin distant formada təşkilidir.Belə ki təhsil ənənəvi formada aparılmır, məsafədən müxtəlif təhsil proqramları vasitəsilə keçirilir.Bunun üçün onlayn platformalar ("Microsoft Teams", "Zoom", "Virtual Məktəb" və s.) istifadə edilmişdir.

İkinci mərhələdə isə tədrisin həm distant, həm də ənənəvi təşkilidir.Məktəblər xüsusi şərtlərlə mərhələli şəkildə açılır, bir hissəsi isə məsafədən aparılır.Daxili sanitar qaydalara əməl edilməklə, məktəbdə hərarət yoxlanılması, epidemioloji nəzarət və s. tədbirlər həyata keçirilir.

Bildiyimiz kimi, Azərbaycanda dövlət xidmətlərindən istifadə "ASAN xidmət" mərkəzləri vasitəsilə təmin edilir. "ASAN xidmət" hələ 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə dövlət idarəçiliyi sahəsində aparılan islahatların tərkib hissəsi kimi yaradılmışdır. Bu xidmət vasitəsilə bütün xidmətlər eyni məkanda cəmlənmişdir.ASAN Xidmət ağıllı həllər və innovasiyalarla COVID-19 ilə mübarizədə ön sıralarda yer almışdır.

Xüsusi karantin rejimi zamanı əhalinin sağlamlığının müdafiəsi əsas götürülərək onların fəaliyyətlərinin innovativ istiqamətdə icrasının təmini məqsədilə vətandaşlar və şirkət, təşkilatlar üçün xüsusi icazə sistemi tətbiq edilmişdir.Bu sistem iki fərqli formada işləmişdir.Birinci versiya- Qısa Mesaj Xidmətidir (SMS).Bu xidmət fiziki əhali üçün nəzərdə tutulmuşdur.Bu xidmət vasitəsilə vətəndaşların xüsusi karantin dövründə zərurət yarandığı halda öz yaşayış yerlərini

tərk etdikləri zaman onların hərəkətini tənzimləmək üçün yaradılmışdır.İkinci versiya isə- www.icaze.e-gov.az -dır.Bu isə işləyən əhali üçün nəzərdə tutulmuşdur.Təşkilatların xüsusi karantin rejimi zamanı öz işçilərinin fəaliyyət göstərməsi üçün icazə aldığı sistemdir.

Bu xidmət ölkəmizdə və onun hüdudlarından kənarda müsbət rəy almışdır.Xüsusi icazə sistemi bəzi ölkələr, həmçinin, Belarus, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri və o cümlədən Astana Hub tərəfindən təsdiqlənmiş və tədqiq edilmişdir.

"Asan Xidmət" mərkəzləri vətəndaşlar üçün ən lazımlı xidmətlərə görə fəaliyyət göstərmişdir.Bu xidmətlərdən yararlanmaq istəyən vətəndaşlar xidmətin xüsusi mobil tətbiqi, internet saytı və ya çağrı mərkəzi vasitəsilə onlayn növbəyə yazılırdılar.Bunun vasitəsilə gün ərzində xidmət göstərilən vətəndaşların sayını, həmçinin, gigiyena qaydalarına riayət olunmasına nəzarət etməyə imkan vermişdir (https://gx.ae/en/resources/government-experience-in-action-azerbaijan-s-agile-response-to-covid-19).

Koronavirus pandemiyasının dünya, o cümlədən, Azərbaycan iqtisadiyyatına vurduğu ağır itkilərlə yanaşı müsbət bir təsiri olmuşdur ki, bu da nağdsız hesablaşmaların intensivləşdirilməsidir.Bu sahə üzrə müxtəlif təşviq tədbirləri aparılmışdır.Plastik kartlarla ödənişlər həm əhalinin vaxtına qənaətə, həm də olduğu yerdən istənilən məhsulu almaq və ya komunnal və digər ödənişləri həyata keçirtməyə kömək etmişdir.

Ümumilikdə, 2021-ci ilin birinci yarısında 2020-cilin eyni dövrü ilə müqayisədə ölkə ərazisində ödəniş kartları vasitəsilə aparılan əməliyyatların həcmi 22,3 faiz artaraq 15900mln manat, bu əhatənin daxilində nağdsız ödənişlərin həcmi 55,6 faiz artaraq 4500mln manat təşkil etmişdir.

Nağdsız ödənişlərin artırılması üçün ölkə səviyyəsində müxtəlif tədbirlər aparılsa da,gözlənilən nəticə əldə olunmamışdır.Bunun üçün bir neçə səbəb vardır:

- ilk növbədə bir anda bütövlükdə qeyri-nağd ödəmələrə keçirilməsi mümkün deyildir;

- ikincisi bu hesablaşmaların kütləvi xarakter alması üçün lazımi şərait olmalıdır.Belə ki, nağdsız ödənişlər post-terminallar vasitəsilə həyata keçirilir.Ödənişlərin bu formada aparılması üçün istənilən sahibkarlıq formalarında, istənilən xidmət və ticarət obyektləri post-terminallarla təchiz edilməlidirlər.

Əhalinin bu istiqamətə yönəldilməsi, onların bank kartlarından onlayn alış-verişlərin inkişaf etdirilməsi üçün bəzi işlər görülməlidir.

-ilk növbədə, vətəndaşlar özü buna maraqlı olmalı-onlar maariflənməlidirlər;

-ikinci, çoxlu sayda stimullaşdırıcı tədbirlər aparılmalıdır;

-üçüncü, bunların müqabilində əhalinin rifah səviyyəsi, gəlirləri də tələb edilən səviyyədə olmalıdır.

Azərbaycanda 2021-ci ilin 1-ci yarısının yekunlarına əsasən, debet və kredit kartları vasitəsilə aparılan əməliyyatların həcmi 2020-ci ilin eyni növrü ilə müqayisədə 57 faiz çox olaraq, 4.3 milyard manat təşkil etmişdir.Bu qeyd olunan artım əlbəttə ki, pandemiyanın təsirindən yaranmışdır.Bu da həm dövlətin iqtisadiyyatının inkişafına, həm də əhalinin fəaliyyətinin innovativ istiqaməti üzrə faydalı və mənfəətlidir.

## 3.2 Azərbaycanda pandemiya dövründə xidmət və keyfiyyətin tənzimlənməsinin idarə edilməsi

Azərbaycan höküməti pandemiyanın təsirlərinin mümkün qədər azaltmaq, əhalinin sağlamlığının müdafiəsi, həmçinin, əhalinin rifah səviyyəsinin qorunması, onların fəaliyyətinin təkmilləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirmiş və qanunlar qəbul etmişdir.Onlardan biri "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"dır.

Bu Tədbirlər Planı vasitəsilə iqtisadiyyatın makro səviyyədə stabilliyinin təmini, məşğulluğun və rifah səviyyəsinin yüksəldilməsi, sahibkarlıq subyektlərinə dəstək, kreditlərin verilməsi və s. məsələlərə toxunulmuşdur.

Pandemiya dövründə xidmət və keyfiyyətin tənzimlənməsinin idarə edilməsi üçün "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nın təsdiq edilməsi barədə qanun layihəsi qəbul edilmişdir.Bu qanunla bağlı olaraq:

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində pandemiya dövründə işsiz kimi qeydiyyata alınmış vətəndaşlara xüsusi karantin rejimi ilə əlaqədar karantin müddətində aylıq 190 manat məbləğində vəsaitlərin verilməsini;
- birdəfəlik ödəmənin məqsədi məşğulluğun məhdudlaşdırılması ilə işsiz əhalinin sosial müdafiəsini təmin etməkdən ibarətdir.

"Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 iyul tarixli 249 nömrəli Qərarı ölkədə sahibkarlıq subyektlərinə dövlət tərəfindən dəstəyin verilməsi və bu istiqamətdə təkmilləşdirilmə aparılmasında prioritet olmuşdur.Bu qərarla bağlı müxtəlif güzəştlər nəzərdə tutulmuşdur.Pandemiyadan zərərçəkmiş sahibkarlıq subyektləri gəlir (mənfəət) vergisi, sadələşdirilmiş vergi, əmlak və torpaq vergilərinin ödənilməsi müddətlərinin uzadılması, o cümlədən, vergi ödəyicisi tərəfindən aparılan gigiyenik-profilaktik tədbirlərə çəkilən xərclərin məhdudlaşdırılmayan gəlirdən çıxılan xərclərə aid edilməsi kimi vergi güzəştləri nəzərdə tutulmuşdur.

Azərbaycan Mərkəzi Bankının 30 sentyabr 2021-ci il tarixli qərarına əsasən dəstək tədbirlərinə yenidən baxılmış, karatin müddətinin hələ davam etdiyi nəzərə alınaraq pandemiyadan zərərçəkmiş fiziki şəxslər və sahibkarlıq subyektlərinin maraqlarının müdafiəsi və dəstəklənməsi tədbirləri uzadılmışdır.Belə ki,verilmiş

kreditlərin vaxtında ödənilməməsi zamanı əlavə cərimə faizi hesablanmaması, kredit ödəyicilərinin kredit öhdəliklərinin gecikdirilməsi ilə əlaqədar onların kredit tarixçələrinin pisləşməməsi ilə bağlı tövsiyələrin müddəti uzadılmışdır (https://www.cbar.az/press-release-3307/central-bank-extends-the-action-in-additional-support-measures-package-to-financial-sector-due-to-coronavirus-pandemic). Pandemiya dövründə əhalinin fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 yanvar 2020-ci il tarixli 35s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı"nın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən Tədbirlər Planı hazırlanmışdır.Bununla bağlı Nazirlikdə Qərargah yaradılmış və hər gün hər bir təhsil müəssisəsindən gündəlik vəziyyətlə bağlı məlumat toplanılmış, ümumiləşdirilmiş və Operativ Qərargaha ötürülmüşdür.

Ölkənin bütün regionlarında, həmçinin ucqar kəndlərində yaşayan şagirdlərin dərslərdən uzaq qalmaması üçün dərslər televiziya kanallarında nümayiş olunmağa başlamışdır.Bunun üçün "Mədəniyyət" və "ARB Günəş" kanallarında dərslər tədris edilib, sonra nümayiş etdirilən bütün dərslər Təhsil Nazirliyinin www.video.edu.az elektron portalında və rəsmi "Facebook" səhifəsində, "Youtube"kanalında yerləşdirilmişdir.Bu teledərslərlə bərabər, hər həftə ev tapşırıqlarına köməklik üçün 2 saatlıq verilişlər də verilmişdir.Azərbaycandan pandemiya dövründə aparılan belə interaktiv tədbirlər sonradan Türkiyə, Gürcüstan, Ukrayna və digər dövlətlər tərəfindən də istifadə edilməyə başlamışdır.

Qeyd etiyimiz kimi şagirdlərin dərslərdə iştirakı üçün "Virtual Məktəb" platforması yaradılmışdır.Bundan sonra hər həftə uşaqlar arasında "Virtual əlaçı" müsabiqəsi keçirilir və yarışmanın qalibi elan edilir, bu da onlarda sağlam rəqabətin yaranmasına və motivasiyanın güclənməsinə zəmin yaratmışdır.

Həmçinin təhsil alan tələbələrin daha da inkişafı, müəllimlərə təlimlərin keçirilməsi üçün "onlayn siniflər" yaradılmışdır.Bu siniflərdə çalışan müəllimlər şagirdlərə və həmçinin müəllimlərə mentor dəstəyinin verilməsi, müəllim-pedoqoji heyətinin inkişafının stimullaşdırılmasında iştirak etmişdirlər.

Pandemiya dövründə 2020-ci ilin aprel ayının əvvəllərində Təhsil Nazirliyinin “STEAM Azərbaycan” layihəsi əhatəsində pandemiyadan müdafiə olunmaq üçün “üz sipəri, həmçinin, bir neçə tibbi avadanlıqların tərkib hissələrinin sınaq istehsalına başlanılmışdır.Bu layihə 2019- cu ilin sentyabr ayından Heydər Əliyev fondunun dəstəyi ilə yaradılmışdır.Layihənin əhatə dairəsi ölkə ərazisində 42 məktəbin 6 mindən çox şagirdi ilə müəyyənləşir.Layihənin əsas məqsədi innovasiya və yaradıcılığın şagirdlər arasında təşviq edilməsindən ibarətdir (https://edu.gov.az/az/news-and-updates/18449).

UNİCEF-in Azərbaycandakı Nümayəndəliyinin Rəhbəri Edvard Karvardin “Covid-19 pandemiyası toplumsal səhiyyə çərçivəsindən çıxaraq ailələrin psixoloji sağlamlığına, azyaşlı uşaqların inkişaf səviyyəsinə, uşaqların təhsilinə təsir edir. Bizim öhdəliyimiz mövcud proqramlarımızı "yeni normaya" uyğunlaşdırmaq və pandemiyaya cavab olaraq yeni müdaxilələr həyata keçirməklə mümkün qədər çox ailəyə dəstək olmaqdır.İrəli addımladığımızda biz uşaqlara, tələbələrə, ailələrə dəstək olaraq gələcəkdə meydana çıxa biləcək yeni viruslara hazırlıqlı olmalıyıq” fikirlərini söyləmişdir.

Distant təhsil üçün vərdişlərin artırılması və praktiki təcrübənin gücləndirilməsi sahəsində işlər görülmüşdür.İnkluziv Təhsil meylləri əhatəsində maliyyə mənbəyi UNİCEF-in Avropa ittifaqı olan və Təhsil Nazirliyi ilə birlikdə ortaq layihə kimi həyata keçirilən bu layihədə ölkənin yeddi pilot rayonunda 6000 ibtiadi sinif müəllimlərinin inkluziv siniflərdə bilik və bacarıqları təkmilləşdirilmişdir.Covid-19 səbəbilə xüsusi karantin rejiminin olması və təhsil ocaqlarının bağlanması səbəbindən tərəfdaşlar təlimləri onlayn platformalar üzərindən həyata keçirmişdirlər.

Covid-19 dövründə Azərbaycanda məktəbəqədər hazırlıq dövründə təhsilin dəstəklənməsi üzrə tədbirlər icra edilmişdir.Bu layihələr UNİCEF, Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə bigə əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir.Layihədə 3 yaşdan 5 yaşa qədər uşaqlar, eyni zamanda əlilliyi olan və qavramaqda çətinlik çəkən uşaqlar üçün onlayn tədris vəsaitləri, videodərslər əks olunmuşdur.Həmçinin,

müəllim-pedoqoji heyətin də yeni iş mühitinə adaptasiya ola bilməsi üçün tədbirlər aparılmışdır.

Qeyd etdiyimiz kimi, dərslər televiziya kanallarında nümayiş etdirilməyə başlamışdır.Bu da məktəbəqədərki uşaqlara evdə təhsil və öyrənmə imkanı verir, həmçinin, ölkənin bütün ərzaisində sosial baxımdan zəif əhali qrupu üçün əlçatandır.Valideynlər üçün mobil tətbiq oyunlar, mütaliə etmək üçün hekayələr, distant təhsil zamanı uşaqlarla işləməklə bağlı faydalı tövsiyələr, gərgin vəziyyətin idarəedilməsini də əhatə edən, uşaqlar üçün evdə öyrənmə inkişafını təmin edən və təkmilləşdirməyə kömək edən www.ilk5il.az təhsil portalı və mobil tətbiqi tövsiyyə edilmişdir.

UNİCEF Avropa İttifaqının maliyyə dəstəyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ASAN Könüllüləri ilə birlikdə COVID-19-un yayılması ilə əlaqədar əvvəllər valideyn himayəsindən məhrum olmuş və internat məktəblərindən evə qayıdan uşaqlara maddi dəstək göstərmişdir.Bu maddi dəstəyə gündəlik tələbat üçün ərzaq məhsulları, gigiyena vasitələri, dərman preparatları və s. daxildir.

Pandemiya dövründə əsas vəzifələrdən biri əhalinin düzgün məlumatlandırılması olmuşdur.UNİCEF-in Gəncə, Ağcabədi və Şirvan mərkəzlərində sosial xidmətlərin həyata keçirilməsi üçün sosial cəhdi koronavirusla bağlı risklərin əhaliyə ötürülməsi üçün əsas vasitələrdən biri olmuşdur.UNİCEF tərəfindən valideynlər üçün tərtib edilən onlayn kanallar və platformalar, həmçinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi saytı vasitəsilə uşaqların erkən yaşda öyrənmə imkanlarının təkmilləşdirilməsi, stresin idarəedilməsi, psixoloji yardım və gigiyena tədbirləri barədə məlumatları paylaşılmışdır.

UNİCEF həmçinin, ABŞ-ın Beynəlxaq İnkişaf Agentliyinin qrant dəstəyi ilə, gələcəkdə pandemiyalara hazırlıq məqsədilə rayon səviyyəsində müəssisələrin işləmə gücünün təkmilləşdirilməsi üçün səhiyyə sahəsində yeni layihəyə rəhbərlik etmişdir.Mütəxəssislərdən təşkil olunan xüsusi təlim heyətləri vasitəsilə sahə tibb işçiləri xətəliklərin idarəedilməsi, infeksiyaların müalicəsi və onlara qarşı müdafiə və digər gigiyenik tədbirlərə riayətin inkişafı üçün təlimlər keçmişdirlər.Bu proqram PROACT adlandırılır.

Bu layihə pandemiyanın yayılması anında mübarizə tədbirlərində çatışmazlıqların aradan qaldırılması üçün ilkin səhiyyə tədbirlərinin gücləndirilməsi məqsədini daşıyır.Eyni zamanda layihə Azərbaycan üçün ilkin səhiyyə modelinin yaradılması funksiyasını daşıyır.Gələcək zamanda bu model genişləndirilə də bilər.

İlk olaraq Şamaxıda fevral ayının 12-də "PROACT-Qayğı" proqramının icrasına başlanılmışdır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyi vasitəsilə həyata keçirilən bu layihə USAİD, Böyük Britaniyanın "Ukaid", Ruminiyanın "RoAid" təşkilatlarının ortaq səyi əsasında yaradılmışdır.

Layihənin həyata keçirilməsində Şamaxı Rayon İcra Hakimiyyəti, Səhiyyə Nazirliyi, İcabri Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Heydər Əliyev Fondu, TƏBİB, UNİCEF və BMT-nin Əhali Fondur ilə tərəfdaşlıq edilmişdir.

PROACT təlim layihəsi çərçivəsində yaradılmış bu mərkəz may ayının 15-dək fəaliyyət göstərəcəkdir.Burada Şamaxı və ətraf rayonlardan olan 400 nəfərə qədər tibb işçisinə təlim keçiriləcəkdir.Təlim mərkəzi daha sonra Mərkəzi Xəstəxananın tərkibində yerli təlim qrupu kimi fəaliyyət göstərəcəkdir (https://www.azerbaijan-news.az/posts/detail/umumdunya-sehiyye-teskilati-samaxida-proact-qaygi-layihesine-baslayib-1613161784).

UNİCEF-in həyata keçirdiyi layihələr sırasında gənclərlə bağlı tədbirlər də vardır.Bu layihələrdən biri "Əsas Həyat Bacarıqları" (BLS Remote") kursları virtual mühitə keçirilərək, vebinarlar şəklində pandemiyadan əvvəlki şəraitdə əyani formada 16 dərsdən təşkil edilmiş ənənəvi proqramına uyğun olaraq davam etdirilmişdir.10000-dən çox gənci və ailələrini əhatə edən bu layihə stresin idarəedilməsi və aradan qaldırılması və s. barədə vebinarlar sosial platformlar vasitəsilə həyata keçirilmişdir.Pandemiyanın müsbət tərəfdən təsiri ondan ibarət idi ki, bunun sayəsində ölkənin istənilən yerindən, daha geniş auditoriyanı, eyni zamanda, Peşə Təhsil Müssisələrini də əhatə etmək şansı idi.Bu proqram, həmçinin, Qazaxıstan, Belarus, Ukrayna və Rusiyadan gənclər üçün də uğurla həyata keçirilmişdir.

UNİCEF Azərbaycan Respublikasının Gənclər Fondu ilə ortaq tədbirlər həyata keçirmişdir.Gəncləri məsuliyyətli olmağa, yaranmış fövqəladə vəziyyəti öz inkişafları üçün istifadə etməyə çağırmışdırlar.Gənclərin yaradıcılığının inkişafı və aktiv qalması üçün videoçarxlar hazırlamışdırlar (https://www.unicef.org/azerbaijan/az/car%C3%A7%C4%B1news-92020#_tehsil). Qeyd edilən bütün bu tədbirlər və layihələr cəmiyyətin sosial rifahının yüksəldilməsi, onların pandemiyaya qarşı mübarizə tədbirlərinin dəstəklənməsi, müəyyən qəbulediləbilən normada işsizliyin səviyyəsinin normal səviyyədə saxlanılması və eyni zamanda cəmiyyətin əsasını təşkil edən gənclərin yaradıcılıq qabiliyyətinin, bilik səviyyəsinin inkişafını dəstəkləməkdən ibarətdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İlk əsrlərdən bu günə qədər epidemiyalar cəmiyyətin ən böyük problemlərindən biri olmuşdur.Tarixə baxdığımız zaman dünyanın bir çox yerində və xalqlarda təsirli olduğu müşahidə edilmiş, iqtisadi, siyasi, hərbi və sosial mövqelərə mənfi təsir

göstərmişdir.Sağlam olmayan mühitlər, aclıq, müharibələr, təbii fəlakətlər cəmiyyətləri xəstəliklərə və xüsusən ölümlərə qarşı həssaslaşdırmışdır.

Dünyanın əksər sektorlarında əsas qida ehtiyaclarından başqa istehsalın dayandırılması ÜMM-ə mənfi təsir etmişdir.Müəssisələrin həyata keçirdikləri siyasətlər, sərhədlərin bağlanması, beynəlxalq uçuşların təxirə salınması və ölkələrin bəzi məhsul qrupları üzrə ixracatı dayandırması qlobal təchizat zəncirində fasilələrə səbəb olmuşdur.Dünyada tələbatın azalması və bəzi istehsal sahələrinin dayanması ciddi səviyyədə işsizliyə səbəb olmuşdur.İşsizlik səbəbindən gəlirlərin itkisi və gəlirini itirən şəxslərin öz ehtiyaclarını qarşılaya bilməməsi sosial problemlərin yaranmasına səbəb olmuşdur.

Fors-major hal kimi yaranan bu pandemiyaya uyğunlaşmağa çalışan ölkələr öz qanunvericiliklərində müəyyən dəyişiklik və ya yeni qərarlar qəbul edərək, pandemiyanın sosial-iqtisadi tənzimlənməsi ilə yanaşı, hüquqi tənzimləmələr də aparmışdırlar.

1-ci fəsildən əldə olunan nəticələrə görə dünyada ölkələr pandemiyaya uğunlaşmağa çalışaraq müəyyən istiqamətlər üzrə tədbirlər həyata keçirmişdir.Səhiyyə, təhsil, e-ticarət və s. sahələr üzrə layihələr aparılmışdır.

Əhalinin fəaliyyətinin innovativ istiqamətləri kimi tədbirlər yerinə yetirilmişdir. Məsələn: yeni və təkmilləşdirilmiş məhsulun çatdırılma metodlarının seçilməsi, kafe-restoranların onlayn iş rejiminə keçməsi,təhsilin distant formada tətbiqi, e-ticarətin inkişafı buna bariz nümunədir.

Texnika və texnologiyadan istifadə vərdişlərinin artırılması, yeni platformalarla tanışlıq əhalinin sosial həyatında innovativ istiqamət kimi meydana gəlmişdir.

2- ci fəsildə aparılan sorğu və statistik göstəricilər, cədvəllərin nəticələrinə əsasən qeyd etmək olar ki, əhali bəzən pandemiyanın faydalarından istifadə etmiş, bəzən isə mənfi təsirlənmişdir.Belə ki, uzaqdan çalışma rejiminin istifadəsi, daha çox boş vaxtın yaranması insanların özünüinkişaf üçün əhəmiyyətli rol oynamışdır.Bundan başqa e-ticarətin inkişafı diqqətəlayiqdir.Pandemiyadan əvvəlki dövrdə onlayn ticarət olsa da, bu dövrdə daha da təkmilləşdirilmişdir.Əvvəlki illərlə

müqayisədə post-pandemiya dövründə onlayn alışverişin 3 dəfədən çox artdığı müşahidə olunmuşdur.İnsanların evdən çıxmadan nağdsız hesablaşmalar vasitəsilə istənilən ödənişlərini ödəməsi, onların həm vaxtına qənaət etməsinə səbəb olmuş,həm də təhlükəsizlik baxımından daha effektiv üsul hesab olunmuşdur.Bu cəhətdən bu sistemlərin daha da təkmilləşdirilməsinin vacibliyi vurğunlanmalıdır.

3-cü fəsildən əldə olunan nəticələrə görə ölkəmizin dünya səviyyəsində həyata keçirilən effektiv tədbirlərə çatması üçün müəyyən tənzimləmələrə ehtiyac duyduğu nəzərə çarpır.Bu baxımdan müxtəlif qanunvericilik aktları qəbul edilmiş və icrasına nəzarət olunmuşdur.Təhsilin hibrid formada keçirilməsi, sosial cəhətdən həssas əhali qrupu üçün yardımların verilməsi, vergi güzəştlərinin edilməsi, nağdsız hesablaşmaların istifadəsinə təşviqat və s. bu timsaldandır.

Aparılan tədqiqatın nəticəsi olaraq, koronavirus pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin təkmilləşdirilməsi üçün bəzi təkliflər göstərirəm:

- e-ticarətin inkişaf etdirilməsi üçün mühüm tədbirlərin həyata keçirilməsi, insanların güvəninin qazanılması, daha çox marketinq yaradaraq onlar belə alışverişə təşviq edilməlidir;
- təhsilin distant tədrisi üçün lazımı hazırlıq işlərinin görülməsi, tələbələrin və onların valideynlərinin, pedoqoji heyətin bu sistemə adaptasiya ola bilməsi üçün lazımi təlimlər aparılmalıdır;
- insanların çox olduğu xidmət müəssilərində növbə rejiminin tənzimlənməsi və əhali sıxlığının qarşısı alınmalıdır;
- məsafədən, elektron qaydada xidmətlərin göstərilməsi üçün sistemlər təkmilləşdirilməlidir;
- qeyd olunan tədbirlərin hüquq çərçivəsində tənzimlənməsi, əhalinin hüquqlarının müdafiəsinin həyata keçirilməsi üçün mühüm addımlar atılmalıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1.“Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Tədbirlər Planı, Bakı, 2020.

2.“Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası”, Bakı, 2020

3.“Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə”, Bakı, 2020.

4."Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı”, Bakı, 2020.

5.“Pandemiya dövründə iqtisadi vəziyyət”, Ecovision jurnalı, 2020, 40 səh.

6.Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan arasında dayanıqlı inkişaf üzrə əməkdaşlığa dair çərçivə sənədi, 2021-2025, 66 səh.

7.Atakişiyev M.C., Süleymanov Q.S. (2004), “İnnovasiya menecmenti”, Bakı, “Təfəkkür” NPM, 136 səh.

8.Yrd.Doç.Dr.M.Dinçer, Süleymanov E., Heydərova A. (2014) “İnnovasıya Menecmentı Və Azərbaycanda Tətbiqinin Səmərəliliyi”, 13 səh.

**İngilis dilində**

1.Ahir H., Bloom N., Furceri D. (2018), The World Uncertainty Index (WUI), p 13.

2.Christensen C., Nair H. (2012), Disruptive Innovation: An Intellectual History And Directions For Future Research, p.55.

3.FAO(Food and Agriculture Organization of the United Nations). (2020). Novel Coronavirus (COVID-19).

4.Gross D., Forbes. (2007). Greatest Business Stories of All Time.

5.Hanushek E., Woessmann L. (2020), The economic impacts of learning losses, p.10.

6.ILO(International Labour Organization). (2020), COVID-19 and the world of work. Fifth edition Updated estimates and analysis.

7.IMF. (2020), World Economic Outlook International Monetary Fund A Long and Difficult Ascent.

8.Inman P. (2020, ). A hundred years on, will there be another Great Depression? The Guardian, p.1-3.

9.Lenzen M., Li M., Malik A., Pomponi F., Sun Y-Y, Wiedmann T. (2020), Global socio-economic losses and environmental gains from the Coronavirus pandemic, p.4.

10.Lİ S., Wang Y., Xue J., Zhao N., Zhu T. (2020), “Epidemic declaration on psychological consequences: a study on active weibo users. International Journal of Environmental Research and Public Health”, 17(6), p. 1-9.

11.Lustig N., Pabon V. M., Sanz F., Younger S. D. (2020), “The Impact of COVID-19 Lockdowns and Expanded Social Assistance on Inequality, Poverty and Mobility in Argentina, Brazil, Colombia and Mexico”, (No. 556).

12.McKibbin W., Fernando R. (2020), “The Global Macroeconomic Impacts of COVID19: Seven Scenarios”.

13.OECD. (2020), New OECD outlook on the global economy, p.50.

14.Osborne S., Brown K. (2005). Managing Change and Innovation in Public Service Organisations, p.25.

15.Palomino J. C., Rodríguez J. G., Sebastian R. (2020), “ Wage inequality and poverty effects of lockdown and social distancing in Europe”, European Economic Review, Vol. 129.

16.Phills J. A., Deiglmeier K., Miller D. T. (2008), “ Rediscovering Social Innovation”, Stanford Social Innovation Review, 6(4), p.34-43.

17.Pol E., Ville S. (2009), “Social Innovation: Buzz Word Or Enduring Term?”. Journal Of Socio-Economics, 38(6), p.878-885.

18.Schumpeter J. (1934), “ The Theory of Economic Development”, London: Transaction Publishers.

19.Schmidhuber J., Pound J., Qiao B. (2020), “Channels of transmission to food and agriculture”, (FAO) Food and Agriculture Organization of the United Nations, p.6-7.

20.Thunström L., Newbold S. C., Finnoff D., Ashworth M., Shogren J. F.

(2020). The Benefits and Costs of Using Social Distancing to Flatten the Curve for COVID19. Journal of Benefit-Cost Analysis, 11(2), p. 179–195.

21.Tidd J., Bessant J., Pavitt K. (2001), " Managing Innovation: Integrating Technological, Market and Organisational Change", p.11.

22.UNIDO. (2020), Coronavirus. The Economic Impact,p. 2.

23.Wan D., Ong C., Lee F. (2005), " Determinants of Firm Innovation in Singapure", Technovation, 25(3), p.262.

24.Worldometer. (2021). COVID-19 Coronavirus Pandemic.

**Türk dilində**

1.Adigüzel M. (2020), "Covid-19 Pandemisinin Türkiye Ekonomisine Etkilerinin Makroekonomik Analizi", 37, s.191 – 221.

2.Alaeddinoğlu F., Rol S. (2020), " Covid-19 Pandemisi ve Turizm Üzerindeki Etkileri", Van Yüzüncü Yıl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Salgın Hastalıklar Özel Sayısı, s.233-258

3.Akyazı A. (2018), "Dijitalleşen Ticaret: Yaşlı Dostu E-Ticaret Siteleri Üzerine Bir Araştırma", The Turkish Online Journal of Design Art and Communication, 8(4), s.602-614.

4.Aslan R. (2020). "Tarihten günümüze epidemiler, pandemiler ve Covid", s.35-41.

5.Ayrıntı Dergisi. (2021), 8 (85), s.35-41.

6.Durna U. (2002), "Yenilik Yönetimi", s.9.

7.Elçi Ş. (2007), " İnovasyon: Kalkınma ve Rekabetin Anahtarı", s.27.

8.Göktürk İ. (2021), "Tarihsel Süreçte Önemli Salgın Hastalıklar Ve Covid-19'un Sektörel Açıdan Ekonomik Etkileri", Van, s.31-48.

9.Kaya D.G. (2020), " Koronavirüs Pandemisinin Küresel Ekonomideki İzleri", Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi (ASEAD), 7(5), s.221-237.

10.Üstün Ç., Özçiftçi S. (2020), Anadolu Kliniği Tıp Bilimleri Dergisi, Cilt 25, Özel Sayı 1.

11.Yılmaz C. (2010), “Online Alışverişte Algılama, Değer, Memnuniyet, Güven ve Sadakat Arasındaki İlişki”, Yüksek Lisans Tezi, Cümhuriyyet Üniversitesi, Sosyal Bilimler Enstitusü, s. 12-21.

## İnternet resursları

1. https://www.azerbaijan-news.az/posts/detail/umumdunya-sehiyye teskilati-samaxida-proact-qaygi-layihesine-baslayib-1613161784 ,(10.04.2022).

2.https://www.unicef.org/azerbaijan/az/car%C3%A7%C4%B1news 92020# tehsil , (2022).

3.https://edu.gov.az/az/news-and-updates/18449, Azərbaycan Təhsil Nazirliyinin rəsmi saytı, (2021).

4.https://www.cbar.az/press-release-3307/central-bank-extends-the-action-in-additional-support-measures-package-to-financial-sector-due-to-coronavirus-pandemic, Azərbaycan Mərkəzi Bankı, (30.09.2021).

5.https://www.stat.gov.az/source/labour/, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (23.02.2022)

6.https://www.stat.gov.az/news/index.php?id=4788, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (20.02.2022)

7.https://www.stat.gov.az/source/information_society/ , (21.02.2022)

8.https://gx.ae/en/resources/government-experience-in-action-azerbaijan-s agile-response-to-covid-19, (09.01.2022).

9.https://www.taxes.gov.az/az/post/1019, Azərbaycan Dövlət Vergi Xidmətinin rəsmi saytı, (05.03.2022).

10. https://justice.gov.az/news/1791 , Azərbaycan Ədliyyə Nazirliyinin rəsmi saytı, (05.04.2022).

11.https://science.gov.az/az/news/open/137989 , (12.10.2021).

12.https://www.sosial.gov.az/post_416234-4164, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosail Müdafiəsi Nazirliyinin rəsmi saytı, (30.04.2021).

13.https://nk.gov.az/media/files/ff0145806a54cfbe10603cda6d837b7a.pdf , Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi saytı, (07.02.2022).

14.http://covid19fund.gov.az/az/, Koronavirusla Müdafiə Fondu , (10.04.2022).

15.https://www.abb-bank.az/az/xeberler/azerbaycan-beynelxalq-bankinin-layiheleri-mukafatlar-qazandi, (25.04.2021).

16.https://www.azerbaijan-news.az/posts/detail/umumdunya-sehiyye teskilati samaxida-proact-qaygi-layihesine-baslayib-1613161784, (2022).

17.https://www.dp.edu.az/az/news/1046#.YlR7uHhBzIV, (01.03.2022).

# ƏLAVƏLƏR

## Sorğu Anketi

Tədqiqatda istifadə olunmuş anket sualları :

1. Cinsiniz nədir ?

- Kişi
- Qadın

2. Yaşınız neçədir ?

- 18-25 yaş
- 26-35 yaş
- 36-45 yaş
- 46-60 yaş

3. Təhsil səviyyəniz

- orta
- orta ixtisas
- bakalvr
- magistrant
- fəlsəfə elmləri doktoru
- digər

4. Hansı sahədə fəaliyyət göstərirsiniz ?

- Fərdi fəaliyyət sahəsi
- Dövlət qulluğu
- Təhsil sahəsi
- Özəl sektor
- Tələbə
- İşsiz
- Mövsümi
- Digər

5. Pandemiyanın cəmiyyətin aşağıda göstərilən sahələrinə innovativ təsirini qiymətləndirin:?

- ictimai-iaşə obyektləri yaxşı çox yaxşı pis çox pis
- ticarət mərkəzləri yaxşı çox yaxşı pis çox pis
- təhsil ocaqları yaxşı çox yaxşı pis çox pis
- turizm məkanları yaxşı çox yaxşı pis çox pis

6. Pandemiya dövründə internetə əlçatanlığınızı qiymətləndirin:

- yaxşı
- çox yaxşı
- pis
- çox pis
- digər

7. Koronavirus pandemiyası maliyyə vəziyyətinizə necə təsir göstərdi?

- yaxşı

- çox yaxşı
- pis
- çox pis
- digər

8. Pandemiya dövründə komputerdən istifadə vərdişlərinizi 5 ballıq şkala ilə qiymətləndirin:1-əla, 2-yaxşı, 3-qənaətbəxş, 4-pis, 5-çox pis
9. Covid-19 pandemiyası dövründə hansı onlayn platformalardan istifadə etdiniz?

- Zoom
- Microsoft Teams
- Google meet
- Digər

10.Pandemiya dövründə nəqliyyat məhdudiyyətləri xərclərinizə necə təsir etdi:

- əla
- yaxşı
- qənaətbəxş
- kafi
- pis

11.Covid-19 pandemiyası sosial-məişət şəraitinizdə hansı dəyişikiliklərə səbəb oldu:

- kommunal xərclər artdı
- ərzaq məhsullarına tələbat çoxaldı
- gigiyena vasitələri daha çox istifadə edildi
- digər

12.Pandemiya dövründə hansı pis vərdişlərdən uzaqlaşdınız:

- spirtli içkidən istifadə
- tütün və tütün məhsullarından istifadə
- fast food qidalardan istifadə
- texnoloji vasitələrə bağlılıq
- digər

13.Uzun müddət texnologiyadan istifadə etmək sizdə hansı fiziki fəaliyyətə mənfi təsir etdi?

- əzələ ağrıları
- göz yorğunluğu
- çəki artıqlığı

- ürək xəstəliyi
- yuxu pozğunluğu

14.Karantinin sizdə doğurduğu psixoloji problemləri seçin:

- stress
- yorğunluq
- inamsızlıq
- gələcək qayğısı

15.Fəaliyyət göstərdiyiniz hansı sektorda pandemiya dövründə onlayn sistemdən istifadə etdiniz?

- təhsil
- səhiyyə
- bank
- xidmət
- turizm

16.Covid-19 pandemiyası sizin hansı fəaliyyətinizə innovativ təsir etdi?

- internetdən istifadə təkmilləşdirilməsi
- vaxtın düzgün istifadə edilməsi
- yeni platformalarla tanışlıq
- maliyyə itkisinin azalması

17.Pandemiya şəraiti sizdə hansı yeni vərdişləri aşıladı:

- onlayn ödənişlərə üstünlük verilməsi
- uzaqdan iş rejimi
- e-ticarətin daha çox istifadəsi
- özümü inkişafa daha çox vaxt ayırmaq
- istənilən yerdən və zamanda müxtəlif platformalar vasitəsilə dərslərə qoşulma imkanı

18.Pandemiya dövründə işinizi itirmək qorxusu yaşadınızmı?

- bəli
- xeyr
- qismən
- fikrim yoxdur

19.Ənənəvi və onlayn qaydada işləmənizi qiymətləndirin (seçin):

- onlayn iş vaxtımı daha yaxşı istifadə etməyə kömək etdi
- evdən çalışanda işlə bağlı vəzifələrimə daha yaxşı adaptasiya oluram
- uzaqdan işləyəndə nə zaman işimə ara verəcəyimi və işləyəcəyimi bilirəm, beləliklə istirahət etmək fürsətim olur

- distant işləmək ailəmə,dostlarıma və ya digər işdən kənar fəaliyyətlərə ayırmağı istədiyim zamanımı azaldır
- evdən işləyən zaman normal çalışma saatlaından kənarda da daha çox işlə bağlı problemləri düşünürəm

20.Pandemiya dövründə çalışma şəraiti ilə əlaqəli necə bir çalışma formasına sahib olmaq istəyərdiniz?

- ofis full time part time
- ev full time part time

21.Karantin dövründə onlayn sistemdə işləmək əmək haqqınıza və iş saatınıza təsir etdimi?

- bəli
- xeyr
- qismən

22.Pandemiya dövründə iş yerinizin sanitariya səviyyəsini müəyyənləşdirin:

- tam qane edir
- qane edir
- qane etmir
- qətiyyən qane etmir

23.Siz necə düşünürsünüz, rəhbəriniz sizi pandemiyanın çox yayıldığı yerə ezamiyyətə göndərsə, qərarınız necə olardı?

- tam razı
- razı
- tam narazı
- narazı
- fikrim yoxdur

24.Ev şəraitinin online işləmək üçün uyğunluğunu 5 ballıq şakala üzərindən qiymətləndirin:1-əla, 2-yaxşı, 3-qənaətbəxş, 4-pis, 5-çox pis

25.Online işdən sonra yorğunluğunuzu aradan qaldırmaq üçün hansı fəaliyyətlə məşğul olursunuz?

- kitab oxumaq
- ailəm və dostlarımla vaxt keçirmək
- film izləmək
- yemək hazırlamaq
- digər

26.Sizcə onlayn yoxsa ənənəvi sistem daha effektivdir?

27. Pandemiyadan əvvəl nağdsız hesablaşmalardan istifadə səviyyənizi 5 ballıq şkala ilə qiymətləndirin:1-əla, 2-yaxşı, 3-qənaətbəxş, 4-pis, 5-çox pis
28. Pandemiya dövründə onlayn ödənişlərdən istifadənizi qiymətləndirin:

- yaxşı
- çox yaxşı
- pis
- çox pis

29. Pandemiya dövründə e-ticarət saytlarından istifadənizi 5 ballıq şkala üzərindən qiymətləndirin: 1-əla, 2-yaxşı, 3-qənaətbəxş, 4-pis, 5-çox pis
30. Karantin dövründə özünüinkişaf üçün hər hansı onlayn təlimlərə qoşulmusunuz?

- bəli
- xeyr

31. Yenidən normal həyata adaptasiya olduğunuzu düşünürsünüzmü?

- bəli
- xeyr
- qismən

## Cədvəllərin siyahısı

**Cədvəl 1.** Tarixdə görülən epidemiyalar və onların sosial-iqtisadi nəticələri..............................19
**Cədvəl 2.**Dünyada Covid-19..........................................................................................................21
**Cədvəl 3** : Hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayının 2020-2021-ci il üzrə müqayisə statistikası.......................................................................................................33
**Cədvəl 4**: İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin sayı (ilin sonuna, min nəfərlə)............34
**Cədvəl 5** : Komputer istifadəçilərinin sayı.....................................................................................36
**Cədvəl 6**:İnternet istifadəçilərinin sayı...........................................................................................37
**Cədvəl 7**:Koronavirus pandemiyasının əhalinin innovativ fəaliyyətinə təsirinin PESTE analizi...............................................................................................................................................39
**Cədvəl 8** : Sorğuda iştirak edən respondentlərin yaş aralığı…………………………………........43
**Cədvəl 9:** Covid-19 pandemiyası dövründə hansı onlayn platformalardan istifadə etdiniz?.........................................................................................................................................46
**Cədvəl 10:** Covid-19 pandemiyası sizin hansı fəaliyyətinizə innovativ təsir etdi?......................50
**Cədvəl 11 :** Pandemiya şəraiti sizdə hansı yeni vərdişləri aşıladı?.............................................51
**Cədvəl 12:** Ənənəvi və onlayn qaydada işləmənizi qiymətləndirin (seçin).................................52
**Cədvəl 13:** Pandemiya dövründə e-ticarət saytlarından istifadənizi 5 ballıq şkala üzərindən qiymətləndirin:...................................................................................................................................57
**Cədvəl 14:** Yenidən normal həyata adaptasiya olduğunuzu düşünürsünüzmü?...........................58
**Cədvəl 15:** Sorğudan əldə olunan nəticələrin SWOT analizi.......................................................58

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Pandemiyalar dövründə qlobal qeyri-müəyyənlik indeksi ........................................23
**Qrafik 2:** Pandemiya dövründə bəzi ölkələrdə e-ticarət həcmində meydana gələn dəyişim........26
**Qrafik 3:**Karantin və iqtisadi fəaliyyətin qarşılıqlı əlaqəsi ........................................................28
**Qrafik 4:** İşsizlik səviyyəsinin illərə görə dəyişimi...................................................................29
**Qrafik 5:** Ümumi Daxili Məhsul istehsalının 2020-2021-ci il üzrə müqayisəsi..........................36
**Qrafik 6:** Sorğuda iştirak edən respondentlərin demoqrafik bölgüsü..........................................42
**Qrafik 7:** Sorğuda iştirak edən respondentlərin təhsil səviyyəsi.................................................43
**Qrafik 8:** Sorğuda iştirak edən respondentlərin çalışdığı sahə....................................................44
**Qrafik 9:** Pandemiyanın cəmiyyətin aşağıda göstərilən sahələrinə innovativ təsirini qiymətləndirin...........................................................................................................................44
**Qrafik 10:** Koronavirus pandemiyası maliyyə vəziyyətinizə necə təsir göstərdi?.......................45
**Qrafik 11:** Pandemiya dövründə komputerdən istifadə vərdişlərinizi qiymətləndirin.................45
**Qrafik 12:** Pandemiya dövrıündə nəqliyyat məhdudiyyətləri xərclərinizə necə təsir etdi?..........47
**Qrafik 13:** Covid-19 pandemiyası sosial-məişət şəraitinizdə hansı dəyişikiliklərə səbəb oldu?..48
**Qrafik 14**: Pandemiya dövründə hansı pis vərdişlərdən uzaqlaşdınız?......................................48
**Qrafik 15:** Uzun müddət texnologiyadan istifadə etmək sizdə hansı fiziki fəaliyyətə mənfi təsir etdi?..........................................................................................................................................49
**Qrafik 16:** Karantinin sizdə doğurduğu psixoloji problemləri seçin..........................................49
**Qrafik 17:** Fəaliyyət göstərdiyiniz hansı sektorda pandemiya dövründə onlayn sistemdən istifadə etdiniz?....................................................................................................................................50
**Qrafik 18:** Pandemiya dövründə işinizi itirmək qorxusu yaşadınızmı?......................................51
**Qrafik 19:** Karantin dövründə onlayn sistemdə işləmək əmək haqqınıza və iş saatınıza təsir etdimi?.....................................................................................................................................52
**Qrafik 20 :** Pandemiya dövründə çalışma şəraiti ilə əlaqəli necə bir çalışma formasına sahib olmaq istəyərdiniz?.............................................................................................................................53
**Qrafik 21:** Pandemiya dövründə iş yerinizin sanitariya səviyyəsini müəyyənləşdirin.................53
**Qrafik 22 :** Siz necə düşünürsünüz, rəhbəriniz sizi pandemiyanın çox yayıldığı yerə ezamiyyətə göndərsə, qərarınız necə olardı?..........................................................................................54
**Qrafik 23 :** Ev şəraitinin onlayn işləmək üçün uyğunluğunu qiymətləndirin.............................54
**Qrafik 24:** Onlayn işdən sonra yorğunluğunuzu aradan qaldırmaq üçün hansı fəaliyyətlə məşğul olursunuz?................................................................................................................................55
**Qrafik 25:** Sizcə onlayn yoxsa ənənəvi sistem daha effektivdir?...............................................55
**Qrafik 26 :** Pandemiyadan əvvəl nağdsız hesablaşmalardan istifadə səviyyənizi qiymətləndirin...........................................................................................................................56
**Qrafik 27 :**Pandemiya dövründə onlayn ödənişlərdən istifadənizi qiymətləndirin.....................56
**Qrafik 28 :** Karantin dövründə özünüinkişaf üçün hər hansı onlayn təlimlərə qoşulmusunuz?..........................................................................................................................57
**Qrafik 29:** Azərbaycanda pandemiya dövründə tədrisin təşkili mərhələləri...............................64